www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyun 2016-cı il Çərşənbə axşamı № 135 (6456) Qiyməti 60 qəpik

Xəbər

**Ərli qadın tanışına qoşulub gecəyarı evdən qaçdı**

yazısı səh.14-də

Gündəm

## 6 milyonluq korrupsiyada suçlanan general azadlığa buraxıldı



Bakı Ağır Cinayətlər Məhkəməsi Bayraq Meydanının sabiq rəisi olan Rəşad Məmmədova yüngül cəza verdi

yazısı səh.2-də

## "Az qala deyirlər ki, rus qoşunları Azərbaycandan özü çıxıb"

yazısı səh.6-da

## Həyat yoldaşı Eldar Mahmudovun "ölüm xəbəri"ndən danışdı

yazısı səh.5-də

*Ərəstun Oruclu:*

## "Bildiyim şeylərin çox cüzi hissəsini açıqlamışam"

yazısı səh.7-də

*Pedro Aqramunt:*

## "Məhbusların azad edilməsi Azərbaycan hökumətinin əməkdaşlığa açıq olduğunu göstərir"

yazısı səh.8-də

## İsgəndər Həmidov Surət Hüseynovun iddialarını yalanladı

yazısı səh.10-da

## Azərbaycan ordusunun təlimləri düşməni təşvişə saldı

yazısı səh.11-də

## Ülvi Həkimovdan AXCP-nin parçalanması barədə etiraf

yazısı səh.10-da

## FHN Dövlət Taxıl Fondu üçün buğda tədarükü elan etdi

yazısı səh.2-də

### Ramazan ayının 15-ci günü

İftar 20.31. İmsaq 03.08-dək (QMI)

15-ci günün duası: "İlahi, bu gün məni Sənə həqiqi təzim edib, ulu sayılanlar kimi itaət etməyə müvəffəq et! Sənə yaxşı bəndələr kimi tövbə etməklə qəlbimi işıqlandır! Ey, qorxanlara Aman Verən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Prezidentlərin növbəti görüşü sonuncu olacaq, əgər...

# PETERBURQDA KRİTİK QARABAĞ MÜZAKİRƏLƏRİ - BARIŞA, YOXSA SAVAŞA DOĞRU...

Rusiyanın şimal paytaxtındakı danışıqlar hərb, yoxsa sülh dilemmasına aydınlıq gətirmədi; İlham Əliyev Putinə: "Qarabağ məsələsində status-kvo qəbuledilməzdir, erməni işğalçı qüvvələri bölgədən çıxmalıdır!.."; prezidentlər birgə bəyanat verdilər; Elmar Məmmədyarov: "Azərbaycan tərəfi Peterburq görüşünün nəticələrini müsbət qiymətləndirir"




yazısı səh.9-da

## "Sovetski"ni sökən icra başçısı danışdı: "Bəzi sakinlər reketlik edir"

**İbrahim Mehdiyev:** "Elə ev var ki, mən oraya 5 dəfə getmişəm, həmin ailə ilə dəfələrlə söhbət eləmişəm";"Sovetski elə bir yerdir ki, orada xırda bir şeydən böyük bir hadisə yarana bilər"

yazısı səh.4-də



## Nobel mükafatçısı Məhəmməd Yunus Bakıda; onun kitabının təqdimatı keçirildi

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

## "Əminəm ki, Eldar Mahmudov da cəzasını alacaq"

yazısı səh.5-də



Elxan Süleymanov

## "Millət vəkili Ermənistana səfərə hazırlaşan Papaya məktub yazdı

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016



## “Bizim üçün ən başlıca məsələ İlqar Məmmədovun azad edilməsidir”

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) plenar iclasında Avropa Şurasının baş katibi Tyorbörn Yaqland assambleya üzvlərinin suallarını cavablandırıb. APA-nın Strasburq müxbirinin verdiyi məlumata görə, Azərbaycandakı vəziyyətə toxunan baş katib “Azərbaycanla bağlı təşkilatın baş katibinin istifadə edə biləcəyi hüquqdan istifadə etdim.**

Bu ölkə ilə bağlı Konvensiyanın 52-ci maddəsinin tətbiq edilməsi qərarını verdim. Hazırda bir sıra məhbuslar azad edilib. Amma onu da əlavə etməliyəm ki, burada bunun necə şərh edilməsi məsələsinə bir az ehtiyatlı yanaşmalıyıq”, - deyə söyləyib.

T. Yaqland deyib ki, məhbuslardan bəziləri səhhətlərindəki problemlərə görə azad edilib, bəziləri isə şərti cəzayla azadlığa çıxıblar: “Onlara bəraət verilmədiyi üçün bu insanların əvvəlki kimi yenidən öz işlərində normal fəaliyyət göstərib-göstərməyəcəkləri aydın deyil. Məsələn, mənim bildiyimə görə, hüquq müdafiəçisi İntiqam Əliyevin ofisi tamamilə bağlanıb, orada yenidən işləmək mümkün deyil. Amma bizim üçün ən başlıca məsələ İlqar Məmmədovun azad edilməsidir. Məhz onun haqqında Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın 18-ci maddəsi ilə qərar çıxarılıb. Bu qərar iki il əvvəl qəbul edilib, o isə həbsdə qalmaqdadır”.

T. Yaqland son vaxtlar bir çox məhbusun azadlığa buraxılmasını alqışladığını bildirib: “İndi biz Azərbaycandakı vəziyyəti və ölkənin gələcəyinin necə olacağını yaxından izləyirik. Biz əməkdaşlığı davam etdirəcəyik. Həm İlqar Məmmədovun azad edilməsini, həmçinin artıq həbsdən azad edilmiş şəxslərin normal həyata qayıdıb fəaliyyət göstərmələrini diqqətdə saxlayacağıq”.

## “Biz buranı partladarıq”

Radikal vəhhabi qrupun üzvlərinə cəza istənildi

**Bakı Ağır Məhkəməsində iş adamını qətlə yetirməkdə təqsirləndirilən 17 nəfərlik dəstə - Nurəddin Xəlilov və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

“Qafqazinfo”nun verdiyi xəbərə görə, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə cəza istənilib. Hakimlər kollegiyası zala daxil olarkən dini qruplaşmanın üzvləri “Hökm Allahındır” deyərək etiraz ediblər.

Prokuror çıxış edərkən zalda sakitlik yaranıb, təqsirləndirilənlərdən Fəxri Şirinzadə buna etiraz edərək digərlərindən söhbət etmələrini, məhkəmə iştirakçılarına qulaq asmamalarını deyib: “Qorxmayın, bunlar bizə heç nə edəsi deyillər. Söhbət edin, sakit dayanmayın. Bizi partladası deyillər, biz buranı partladarıq”.

Hakim F.Şirinzadəyə xəbərdarlıq edərək sakit dayanmasını istəyib.

Dövlət ittihamçısı çıxış edərək təqsirləndirilənlər - Nurəddin Xəlilovun ömürlük, Müşfiq Mikayılov, Rəşad Həşimli, Əhməd Kərimov, Coşqun Kərimbəyli, Bahadur Məmmədov 20 il, Zaur Əliyev, Fəxri Şirinzadə, Rufiz Bəyimov 18 il, Pərviz Şıxəliyev, Rəşad Səfərəliyev, Xəlil Məmmədov, Şakir Məmmədov, Niyaməddin Xəlilov 16 il, Ceyhun Abdullayev, Ilqar Musayev, Anar Rzayevin 15 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Prokuror çıxış edərkən təqsirləndirilən şəxslər moizə oxuyublar.

Məhkəmə prosesi iyulun 4-də davam etdiriləcək.

Qeyd edək ki, DİN-in yaydığı məlumata görə, ötən il noyabrın 24-də Qəbələ şəhər sakini Vahid Vahabovun yaşadığı evdə meyiti tapılıb və faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

“Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# 6 milyonluq korrupsiyada suçlanan general azadlığa buraxıldı

Bakı Ağır Cinayətlər Məhkəməsi Rəşad Məmmədovun barəsində yüngül cəza verdi

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Dövlət Bayrağı Meydanı Kompleksinin sabiq rəisi Rəşad Məmmədov, onunla birlikdə tutulan İsfəndiyar İsfəndiyarov və Arzu Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib.

Şahid qismində Maliyyə Nazirliyinin sektor müdiri Ağasəf Ağayev ifadə verib. O bildirib ki, baş nazirin müavininin göstərişi əsasında Bayraq Meydanı Kompleksi İdarəsində yoxlama aparıblar. Yoxlama zamanı bəzi şəxslərin adının tabeldə olduğu halda heç birinin imzalanmadığını deyib: “Bəzilərinin adları yox idi, amma orada işləyirdilər. Biz də yoxladıq və akt tərtib etdik”.

R.Məmmədov ötən proseslərdə olduğu kimi bu dəfə də yoxlamanın qərəzli aparıldığını bildirib.

Sübutların tədqiqi mərhələsi və məhkəmə istintaqı başa çatıb.

Dövlət ittihamçısı çıxış edərək təqsirləndirilən şəxslərə cəza istəyib. Hər üç təqsirləndirilən şəxsin 1 il 1 ay 8 gün müddətinə azadlıqdan məhrum edilməsini və məhkəmə zalından azadlığa buraxılmasını istəyib.

Təqsirləndirilən şəxslərin vəkilləri müvəkkillərinin azadlığa buraxılması ilə bağlı vəsatət qaldırıblar.

Məhkəmə kollegiyası hökm çıxarmaq üçün müşavirə otağına yollanıb.

Fasilədən sonra davam edən məhkəmə prosesində hökm oxunub. Hökmə əsasən, təqsirləndirilən Rəşad Məmmədov və İsfəndiyar İsfəndiyarov1 il 1 ay 8 gün müddətinə azadlıqdan məhrum olunublar. Onlar məhkəmə zalından azadlığa buraxılıblar, Arzu Məmmədov barəsində ev dustaqlığı qətimkan tədbiri isə ləğv edilib.

Xatırladaq ki, sonuncu prosesdə dövlət ittihamçısı Rəşad Məmmədovun azadlığa buraxılması ilə bağlı qaldırılan vəsatətə etiraz etmişdi. Zərərçəkmiş kimi tanınan şəxslər isə onlara dəymiş zərərin ödənildiyini deyərək təqsirləndirilən şəxslərin azadlığa buraxılmasını istəmişdilər.

Qeyd edək ki, Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi R.Məmmədov, İ.İsfəndiyarov və A.Məmmədov ötən ilin may ayında həbs ediliblər.

Onların barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Həbs edilənlərdən A.Məmmədov bu il mart ayının 4-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığına buraxılıb.

Qeyd edək ki, həmin şəxslər Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi il ittiham olunurlar. R.Məmmədov 6 milyon manatlıq korrupsiya əməlində suçlanırdı.

❑ **İlkin MURADOV**

## Bu gündən Bakının əksər mərkəzi küçələrində nəqliyyatın hərəkəti bərpa olunacaq

**Bakıda ilk dəfə “Formula-1" Avropa Qran-prisinin keçirilməsi ilə əlaqədar bağlanmış küçələrin böyük əksəriyyəti iyunun 21-i səhər saatlarından etibarən nəqliyyatın hərəkəti üçün birdəfəlik açılacaq.**

Bakı Şəhər Halqası Əməliyyat şirkətindən “APA-Economics”ə verilən məlumata görə, yarışla əlaqədar Hökumət Evinin ətrafında müvəqqəti olaraq quraşdırılmış tikililərin sökülməsi ilə əlaqədar olaraq Azadlıq meydanı ətrafında olan prospekt və küçələrdə isə nəqliyyatın hərəkəti üçün tətbiq olunan qadağa iyunun 22-dək qüvvədə qalacaq.

Bağlı olacaq yollara aşağıdakılar daxildir:

- Neftçilər prospektinin Rəşid Behbudov küçəsi ilə olan kəsişməsindən Aleksandr Puşkin küçəsi ilə olan kəsişməsinədək;
- Aleksandr Puşkin küçəsinin Neftçilər prospekti ilə olan kəsişməsindən Üzeyir Hacıbəyov küçəsi ilə olan kəsişməsinədək;
- Üzeyir Hacıbəyov küçəsinin Aleksandr Puşkin küçəsi ilə olan kəsişməsindən Azadlıq prospekti ilə olan kəsişməsinədək;
- Azadlıq prospektinin Üzeyir Hacıbəyov küçəsi ilə olan kəsişməsindən Zərifə Əliyeva küçəsinin Rəşid Behbudov küçəsi ilə olan kəsişməsinədək.

Bakı Şəhər Halqası Əməliyyat şirkəti paytaxt sakinlərinin yarış ərəfəsində göstərdiyi anlayışa və dəstəyə görə öz dərin minnətdarlığını bildirir və qeyd edir ki, Avropa Qran-prisi ilə əlaqədar trek ətrafında müvəqqəti quraşdırılmış bütün obyektlər və baryerlər tezliklə sökülərək şəhərin əvvəlki görkəmi bərpa olunacaq.



## Zəvvarlara Həcc ziyarəti üçün vizaların verilməsi vaxtı açıqlanıb

**Azərbaycandan bu il Həcc ziyarətinə gedəcək zəvvarlar üçün vizaların verilməsi əvvəlki illə müqayisədə nisbətən gec başlayacaq. Qafqaz Müsəlmanları İdarəsindənAPA-ya verilən məlumata görə, vizalar iyulun 10-dan etibarən veriləcək.**

Buna səbəb Səudiyyə Ərəbistanı Krallığının vizaların verilməsi ilə bağlı apardığı yazışmalardır.

Son qərara əsasən, azərbaycanlı zəvvarlara yalnız Ramazan bayramından sonra vizaların verilməsi mümkün olacaq. QMİ-dən onu da bildiriblər ki, hər iki ziyarət növü üçün nəzərdə tutulan yerlər artıq dolmaq üzrədir. Qeyd edək ki, aprelin 1-dən Azərbaycanda Həcc ziyarətinə sənəd qəbulu başlayıb. Ziyarət Azərbaycandan sentyabrın 2-də başlayacaq, 18-də geri dönüş olacaq. Bu il Azərbaycandan gedəcək zəvvarlar üçün say limiti ötən ilkindən az - 1500 nəfər müəyyənləşsə də, sonradan bu rəqəm daha da azaldılaraq 1040-a endirilib. Ziyarət zamanı daha yaxşı şəraitli hotellərdə qalmaq, bahalı yeməklərlə təminat, o cümlədən hotellərdə 4 nəfərlik otaqlarda yerləşmək 4500 dollar, nisbətən ucuz şəraitli, 6 nəfərlik otaqlarda qalmaq isə 3500 dollardır. Dolların kursuna görə builki ziyarət xərcləri ötən illə müqayisədə təxminən 1000 manata qədər bahadır. Ötən il Azərbaycandan Həcc ziyarətinə 2400 zəvvar gedib, onlardan 3-ü Məkkədə dünyasını dəyişib və orada dəfn olunub. Ötən il həm də Həcc ziyarəti kütləvi insan ölümü ilə nəticələnən hadisələrin baş verməsi ilə də yadda qalıb. Azərbaycanda Həcc ziyarətinə sənəd qəbulunu yalnız QMİ aparır.

## FHN Dövlət Taxıl Fondu üçün buğda tədarükü elan edib

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Material Ehtiyatları Agentliyi Dövlət Taxıl Fondu üçün “Səngəçal Taxıl Elevatoru”, “Gəncə Taxıl Elevatoru”, “Abşeron Taxıl” MMC, “Dəvəçi-Dəyirman MMC”, “Karat-Holdinq”, “Karmen MMC”, “Gəncə-Dəyirman” MMC, “N.Quliyev adına Bakı-Taxıl” ASC, “Aveta” MMC, “Neon” firması, “EL” kiçik müəssisəsi, “Pak-Nur” Firması, “Xırman” Firması, “Rəşad” firması və “Svinks” MMC müəssisələri vasitəsilə cari ilin iyun ayının 21-dən sentyabr ayının 1-nə kimi yerli buğda istehsalçılarından qiyməti 1 ton üçün 250 AZN olmaqla Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş Dövlət Taxıl Fonduna tədarük olunan taxıl üçün qəbul edilmiş aşağıdakı keyfiyyət göstəricilərinə cavab verən buğda qəbul edəcək.**

Bu barədə APA-ya FHN-in mətbuat xidmətindən məlumat verilib. Taxıl bazarının konyukturuna müvafiq olaraq qiymət dəyişə bilər.

Müvafiq keyfiyyət göstəricilərinin tələblərinə cavab verməyən və məhsulun keyfiyyət göstəriciləri barədə akkreditə olunmuş laboratoriyadan sertifikatı olmayan buğda məhsulu qəbul edilməyəcək. Taxılın özüboşaldan yük maşınları ilə gətirilməsi tövsiyə edilir.

Əlavə məlumat almaq üçün Fövqəladə Hallar Nazirliyinin 012-512-50-25 və 070-271-71-33 nömrələrinə, habelə “112" qaynar xəttinə müraciət etmək olar.

Daxili malgöndərənlərdən tədarük edilən taxılın qəbulu üçün tələb edilən sənədlər bunlardır:

- Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən dənin keyfiyyət göstəricilərinə görə verilmişuyğunluq sertifikatının sureti;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilmiş daxili karantin sertifikatı.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Göyçayın keçmiş icra başçısı Almaniyada müalicəyə hansı pulla gedib?

**Göyçay Rayon İcra Hakimiyyətinin sabiq başçısı Mübariz Ağayev vəzifəsindən azad edildikdən sonra mətbuatda onun barəsində müxtəlif fikirlər yayıldı. Hətta yayılan məlumatların birində deyilirdi ki, guya M.Ağayev daha yüksək vəzifəyə - kənd təsərrüfatı nazirinin müavini postuna göndərilib. Maraqlıdır ki, bu xəbəri mətbuata elə M.Ağayev özü vermişdi.**

## "Başçıların Avropanın həm istirahət, həm də müalicə müəssisələrini bu cür "su yolu"na döndərməsi, təbii ki, müəyyən suallar yaradır"


Mübariz Ağayev

Nazirlik isə bu məlumatı təsdiqləmədi. Eyni zamanda sabiq başçı da məsələ ilə bağlı açıqlamasında bildirdi ki, yayılan xəbərlər yalandır və o, vəzifədən öz istəyi ilə gedib. Lakin onun bu açıqlaması da ictimaiyyət tərəfindən birmənalı qarşılanmadı.

**Sabiq başçı bildirib:** "Bu, yalan və məni istəməyən insanların uydurmasıdır. Mən öz istəyimlə işimdən uzaqlaşdırılmışam. Cənab prezidentdən xahiş etdim ki, məni vəzifəmdən azad etsin. Səhhətimdə problemlər var. Üç gün sonra Berlinə gedirəm, əməliyyat olunacam. Allah cənab prezidentin canını sağ eləsin, məni başa düşdü və dedi ki, get, müalicə olun, sən bizə sağlam lazımsan. Üç dəfə Almaniyada əməliyyat olunmuşam. Hər dəfə gedəndə rayon sahibsiz qalırdı, belə olmazdı. Əməliyyat olunub qayıdım, inşallah, hər şey yaxşı olar".

İctimaiyyətdə sual doğdu ki, aylıq maaşı 1000 manat civarında olan Mübariz Ağayev Almaniyaya getmək üçün bu qədər pulu haradan alıb?

Almaniyada müalicə olunmaq Azərbaycanda çoxlarının arzusu olsa da, bunu hər kəs gerçəkləşdirə bilmir. Çünki Almaniyada müalicə digər yerlərlə müqayisədə çox bahadır.

**Mövzu ilə bağlı musavat.com-a politoloq Natiq Miri danışıb. O bildirib ki, ölkə əhalisinin böyük əksəriyyəti nəinki Almaniya, heç İranda da müalicə almaq imkanında deyil:** "İranda müalicə digər yerlərlə müqayisədə nisbətən ucuz olsa da, toplumun əksəriyyəti bundan da məhrumdur. Rayon icra hakimiyyəti başçılarının aldıqları əmək haqları Almaniyaya gedib-gəlmək xərcini belə ödəmədiyi halda, dəfələrlə ora müalicə üçün səfər etmələri göstərir ki, başqa maliyyə mənbələri və təminatdan söhbət gedir. Çünki Almaniyada müasir tibblə müalicə olunmaq çox baha başa gəlir. Bu da Azərbaycan vətəndaşlarının imkanları xaricindədir. O baxımdan icra başçılarının, xüsusilə də Avropanın həm istirahət, həm də müalicə-tibb müəssisələrini bu cür "su yolu"na döndərməsi, təbii ki, cəmiyyətdə müəyyən suallar yaradır. Əgər cəmiyyətin hər hansı bir sıravi üzvü bunu edə bilmirsə, icra başçısının özünün və ailəsinin dəfələrlə qeyd olunan yerlərə getməsi toplumda bir çox məsələlərin normal olmadığının göstəricisidir. İcra başçıları əgər dövlət səviyyəsində müalicə alırlarsa, bu yöndə də konkret informasiyalar olmalıdır ki, bu da mövcud deyil. Demək ki, onlar öz hesablarına bunu edirlər. Məsələ də elə budur. Bu şəxslərin bizneslə məşğul olmaları da qanunvericiliklə qadağan olunur. Bizneslə məşğul olmayan icra başçısının ürəyi istədiyi zaman Avropa ölkələrinə, bahalı tibb müəssisələrinə yollanması təbii ki, hüquq-mühafizə orqanlarında da sualların yaranmasına səbəb olmalıdır. Buna görə də hesab edirəm ki, bu cür məsələlər normal hal deyil. Sıravi Azərbaycan vətəndaşı özü ilə icra başçısını müqayisə edərkən ictimaiyyətdə hakimiyyət adına heç də xoş təəssürat yaranmır".

❑ Əli RAİS

# Nobel mükafatçısı Məhəmməd Yunusdan Azərbaycanla bağlı nikbin fikirlər

## ABŞ prezidentinin Azadlıq Medalı və ABŞ Konqresinin Qızıl Medalını almış yeddi şəxsdən biri olan alimə BAMF-in Ali Mükafatı təqdim edildi və onun yazdığı kitabın təqdimatı keçirildi

**İyunun 20-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun təşəbbüsü, ADA və İqtisad Universitetinin birgə təşkilatçılığı ilə Bakıya səfər etmiş Nobel Sülh mükafatı laureatı Məhəmməd Yunusun "Kasıbların bankiri" ( The Banker to the Poor) kitabının Azərbaycan dilindəki versiyasının təqdimatı keçirilib.**




Qeyd edək ki, bu kitab BAMF tərəfindən Azərbaycan dilinə tərcümə olunub. Bir neçə gündür Azərbaycanda səfərdə olan professor Məhəmməd Yunus kitabının Azərbaycan dilinə tərcümə olunmuş ilk versiyasını imzalayaraq Azərbaycan prezidenti ilə görüşü zamanı şəxsən hədiyyə edib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun qərargahında baş tutan təqdimatda Milli Məclis, beynəlxalq təşkilat, xarici səfirlik , vətəndaş cəmiyyəti nümayəndələri və media təmsilçiləri iştirak edib.

Tədbiri giriş sözü ilə açan **Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri Umud Rəhimoğlu** təqdimatı giriş sözü ilə açaraq iştirakçıları, o cümlədən M.Yunusu salamlayıb. O, qonağın haqqında yüksək fikirlər söyləməklə yanaşı, BAMF-nin təşəbbüsü ilə Azərbaycan dilinə tərcümə edilən "Kasıbların bankiri" kitabından bəhs edib. Bildirib ki, bu kitabın ana dilimizə tərcümə edilməsi və Bakıda təqdimatının dünya şöhrətli müəllif Məhəmməd Yunusun şəxsi iştirakı ilə keçirilməsi əlamətdar hadisədir. "Bu kitabı oxuyan hər kəs həyatında dəyişikliyə ehtiyac hiss edəcək. Kitabın tərcümə prosesi ilə yaxından məşğul olan insan olaraq deyə bilərəm ki, kitab istər yaradıcılıq, istərsə də professionallıq baxımından yeganə vəsaitlərdən biridir ki, bu kitabı oxuyan hər kəs həyatında dəyişikliyə ehtiyac olduğunu hiss edəcək "-U.Rəhimoğlu bildirib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, deputat İsa Həbibbəyli qeyd edib ki, artıq bir neçə ildir Azərbaycanda Nobel mükafatçıları ilə görüşün səmərəli ənənəsi mövcuddur.

**Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli** bildirib ki, M. Yunusu unikal edən, ona Nobel qazandıran ən böyük üstünlüyü dəyişikliyə olan inamı olub.

**"FINCA Azerbaijan" Qeyri-Bank Kredit Təşkilatının Baş İcraçı Menecer Timoti Tarrant** isə Mühəmməd Yunusun Bakıya səfər etməsini çox yüksək qiymətləndirərək, dünya iqtisadçılarının məhz onun araşdırmalarından ilhamlandığını etiraf edib.

**Daha sonra söz dünya şöhrətli müəllifə verilib. Kitabının Azərbaycan dilinə təcrümə edilməsini müsbət qiymətləndirən M. Yunus Azərbaycan xalqının və ictimaiyyətinin kasıblığın azaldılması istiqamətindəki addımlarını yüksək qiymətləndirdiyini deyib:** "Kitabın Azərbaycan dilində tərcümə olunmasında zəhmət çəkən hər bir şəxsə təşəkkür edirəm. Düzü, kitabı ilk yazan zaman bu qədər maraqla qəbul ediləcəyini gözləmirdim. Lakin reaksiyalar məni də təəccübləndirdi. İnkişafı davamlı olan Azərbaycan cəmiyyətinin də "Kasıbların bankiri" kitabından yüksək səviyyədə yararlanacağına ümid edirəm. Biz bu kitabda bir çox vacib məqamlara toxunmuşuq. Hər birimiz yoxsulluğun sıfır səviyyəsinədək endirilməsini arzu edirik. Azərbaycan bu hədəfə çox yaxındır".



**Yoxsulluğun sıfır səviyyəsinə endirildikdən sonra gələcəkdə yoxsulluğun muzeyinin yaradılacağını deyən M. Yunus bildirib ki, Azərbaycan artıq bu istiqamətdə işlərə başlayıb:** "Hər birimiz yoxsulluğun sıfır səviyyəsinədək endirilməsini arzu edirik. Azərbaycan bu hədəfə çox yaxındır".

Bundan sonra mərasimdə professor Məhəmməd Yunusa BAMF-in Ali Mükafatı təqdim olunub. Yeri gəlmişkən, sözügedən Ali Mükafat buna qədər prezident İlham Əliyevə və Udmurtiya Respublikasının rəhbəri Aleksandr Salavyova təqdim olunub. Bu mükafat dünya miqyasında vətəndaş cəmiyyəti sahəsinə verdiyi töhfə, beynəlxalq səviyyədə sosial və iqtisadi sahədə əldə olunan nailiyyətlərə, dünya elminin inkişafında oynadığı əvəzsiz rol və münaqişələrin həllində sülhü təbliğ edən ictimai xadimlərə təqdim olunur.

Tədbirin sonunda müəllif kitabını imzalayaraq iştirakçılara hədiyyə edib və onlarla xatirə fotoları çəkdirib.

Məşhur iqtisadi xadim, "Qramen" Bankının və dünyanın 41 ölkəsində fəaliyyət göstərən 50-dən çox iqtisadi qurumun təsisçisi olan M.Yunusun Azərbaycanda görüşləri davam edir.

❑ Elşad PAŞASOY
FOTO: "YM"

# Elə bir oyuna cəlb olunmuşduq ki...



Hüseynbala SƏLİMOV

**ATƏT-ə yenicə sədrlik etməyə başlayanda Almaniyanın xarici işlər nazirinin "Münaqişələrlə bağlı donmuş sözünü qəbul etmirəm!" deməsi, doğrusu, bizdə müəyyən ümidlər yaratmışdı... Düşünmüşdük ki, bu sədr münaqişələrə, xüsusən də Azərbaycan-Ermənistan münaqişəsinə daha diqqətli olacaq...**

Almaniyanın o vaxtki imici də belə düşünmək üçün müəyyən ümidlər verirdi. Bu ölkə Qarabağ probleminə yanaşmada həmişə daha tərəfsiz və obyektiv hesab edilirdi.

Təsadüfi deyil ki, Bakıda tez-tez Almaniyanın Qarabağ probleminin çözülməsinə daha fəal müdaxiləsini təmin etmək haqda, hətta onun da həmsədrlərdən biri olması haqda təkliflər səslənirdi.

Amma belə eyforiya çox da uzun çəkmədi - Almaniya Bundestaqı da qondarma "erməni soyqırımı"nı tanımaqla bəlli ölkələrin sırasına qatıldı. Düzdür, indiki həmsədr ölkələrdən yalnız biri bu qondarma hadisəni tanımayıb, digər ikisi bunu çoxdan edib və ən maraqlısı odur ki, belə bir vəziyyət rəsmi Bakıya onlarla Qarabağ münaqişəsinin çözülməsində əməkdaşlıq etməyə mane olmur...

Amma yenə də hamı belə hesab edir ki, qondarma "soyqırım" hadisəsi ilə bağlı qətnaməni qəbul edəndən sonra Almaniyanın tərəfsiz və obyektiv dövlət imici tamam korlandı. Fəqət, Almaniya hazırda ATƏT-ə sədrlik edir və Minsk Qrupu da ATƏT-in yaratdığı institutdur. Ona görə də bu ölkə tamamilə problemin periferiyasında qala bilməz...

Almaniyanın sədrliyi dövründə yeni danışıqlara start verildi. Üstəlik, hər iki ölkənin prezidenti bu ölkəyə səfər etdi. Amma nəsə dəyişdimi?..

Güman etmirik. Bəlkə də günah yalnız Almaniyada da deyildir. Bizimkilər hələ Berlində səfərdə olarkən dedilər ki, Rusiya bizim yaxın dostumuz və strateji müttəfiqimizdir! A.Merkel də yumşaq şəkildə işarə etdi ki, onda gedin probleminizi Rusiya həll etsin...

Düzdür, düşünmək olardı ki, Bakı bunu Almaniyanın ATƏT sədri kimi bölgədəki silahlanmadan narahatlığını azaltmaq üçün demişdi, çünki bu ölkədə səfərdə olmuş Ermənistan prezidenti Rusiyanın Azərbaycana müasir silahlar satmasından şikayətlənmişdi. Amma Bakı daha soyuq bir diplomatik ton seçə bilər və Rusiyanın münaqişədəki roluna daha obyektiv işıq sala bilərdi. Amma etmədilər...

Doğrusu, bunu da "başa düşürük". İki ölkənin - Rusiyanın və Azərbaycanın rəsmiləri həqiqətən də dostluq edir və rəsmi Moskva elə doğrudan da, rəsmi Bakının dostudur. Amma cari, özəl hakimiyyət maraqlarından da savayı maraqlar da var. Gərək, rəsmi Bakı arabir bunu da unutmasın...

Qayıdaq Qarabağ prosesinə. Bəli, Vyana görüşü o qədər nəticəsiz oldu ki, diplomatlar bunu ört-basdır etmək üçün ona "etimad görüşü" adını verdilər.

Biz bu sətirləri yazanda Sankt-Peterburq görüşünün ərəfəsi idi. Amma deyək ki, bu görüşlə bağlı hələ irəlicədən elə bir gözləntilərimiz yox idi.

Məsələ ondadır ki, rəsmi Bakı indiki status-kvo, rəsmi Yerevan isə müharibədən əvvəlki status-kvo haqqında danışır. Bakı bildirir ki, indiki status-kvo məqbul deyil. Yerevan isə ərz edir ki, müharibədən əvvəlki status-kvoya qayıtmaqdan söhbət gedə bilməz və Azərbaycan hərbi-teatrdakı hazırkı vəziyyətlə, daha dəqiq desək, ərazilərin işğal olunması ilə barışmalıdır...

Bu, Yerevana "diplomatik torq" üçün lazımdır. Ermənistanın siyasəti yetərincə aydındır - o, torpaq müqabilində Qarabağın müstəqilliyini tanımağı tələb edir, yəni, torpaqlarınızın qayıtmasını istəyirsinizsə, o halda, Qarabağın müstəqilliyini tanıyın!.. Məhz buna görə deyirlər ki, hazırkı reallıqlarla barışmaq və Ermənistanın bu illər ərzində qazandığı "hərbi üstünlük"lə hesablaşmaq lazımdır...

Təbii ki, bu, Azərbaycan üçün məqbul sayıla bilməz. Amma biz bunu bir az əvvəllər düşünməli idik. O vaxt başımız daxili siyasi oyunlara elə qarışmışdı ki, bu haqda düşünməyə nə macalımız, nə də həvəsimiz vardı və özümüzü də elə aparırdıq ki, sanki rayonların biri-birinin ardınca işğalı başqa bir ölkədə, hətta fərqli "koordinat sistemi"ndə gedir. Bəli, o vaxt bizim öz "problem"imiz vardı - Azərbaycanı hələ öz aramızda bölüşdürüb qurtarmamışdıq...

Nə isə... Köhnə dərdlərin içində eşələnməyin mənası yoxdur. Sadəcə, bir məsələni o vaxtlar bilməli idik ki, itirilən torpaqları geri qaytarmaq elə də asan olmayacaqdı... Yox, məsələ onda deyil ki, biz cəmiyyət kimi aciz və ya qorxağıq, ya da bizim hərbi-texniki, iqtisadi və demoqrafik resurslarımız daha zəifdir. Yox, belə deyil. Sadəcə, geosiyasi fon bizim xeyrimizə deyil. Hamı Ermənistana qahmar çıxır, hamı dolayı yolla onu müdafiə edir. Xüsusən də Rusiya bundan yorulub usanmır...

Biz əvvəldən bunun fərqində olmalıydıq. Bilməliydik ki, elə bir "oyun"a cəlb olunmuşuq ki, o, qətiyyən zarafatı və arxayınçılığı sevmir...

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016

**"Sovetski"də aparılan söküntü işləri diqqət mərkəzindədir. Narazı qalan sakinlərin, oradakı tarixi binaların söküntüsünə qarşı çıxan ziyalıların etirazları bu gün də davam edir. Ərazidə vaxtaşırı Yasamal Rayon İcra Hakimiyyətinin nümayəndələri ilə bəzi sakinlər arasında narazılıq baş verir. Bəziləri razılaşdırılmadan, kompensasiya verilmədən evinin söküldüyünü deyir. Bir sözlə, "Sovetski"də köçənlər köçüb, köçməyənlər isə Yasamal Rayon İcra Hakimiyyəti ilə dil tapıb razılığa gələ bilmir. İcra hakimiyyəti sakinlərdən şikayət edir, sakinlər də icradan.**

# "Sovetski"ni sökən icra başçısı danışdı: "Bəzi sakinlər reketlik edir"

## İbrahim Mehdiyev: "Elə ev var ki, mən oraya 5 dəfə getmişəm, həmin ailə ilə dəfələrlə söhbət eləmişəm. Demişəm, sizə necə lazımdır kömək edək"

*"Yeni Müsavat" qəzeti olaraq dəfələrlə "Sovetski" sakinlərinin problemlərini, o cümlədən tarixi abidələrin təəssübünü çəkən ziyalıların mövqelərini işıqlandırmışıq. Ortada cavabını tapmayan xeyli suallar var. Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev "Yeni Müsavat"a verdiyi müsahibədə həmin sualları cavablandırdı.*

***- İbrahim müəllim, "Sovetski"də işlər necə gedir?***

- Bizdə bir neçə layihə var. Yollar çəkilməlidir, park salınmalıdır. Artıq yolların çəkilməsinə başlanılıb. Abdulla Şaiq küçəsinə gəlincə, orada da işlər görülür. Təxminən 20 ev axıra qalıb ki, onlar çox kapriz göstərirlər. Ürəklərindən nə keçirsə, onu istəyirlər. Məsələnin bir tərəfini deyim ki, eləsi var orada yaşamır. Deyirik ki, gəl müqavilə bağlayaq, pulunu verək, çıx get. Deyir ki, mənim dediyim məbləği verirsinizsə, gəlim. Soruşuruq nə qədər istəyirsən, deyir 150 min manat. Deyirik, sənin evinə nə qədər pul düşür, cavab verir 32 min manat. Bəs 32 minin əvəzinə 150 min nəcə verək? Bu, büdcədən ayrılan puldur, biz sənə bu qədər pul verə bilmərik axı... Ya da təklif edirəm ki, sizə şəhərin yaxşı yerində bu evin həcmindən də 10 kvadratmetr artıq ev alıb verək. Aparırıq, göstəririk , yenə deyir ki, yox, mümkün deyil, mən bunu istəmirəm. Səhəri gün isə gəlir ki, iki dənə ev tapmışam, biri Suraxanıda, biri də Xırdalanda, gedin, mənə o iki evi alın. Büdcədən ayrılan vəsaiti biz istədiyimiz kimi xərcləyə bilmərik, mən dövlətin puluna xəyanət edə bilmərəm. Sabah məni də yoxlayacaqlar, mən bu pula görə başımla cavab verəcəyəm. Deməzlər ki, sən nə ixtiyarla bu evlərin kvadratına bu qədər pul vermisən, haradan vermisən bu pulu?

**"Sovetski elə bir yerdir ki, orada xırda bir şeydən böyük bir hadisə yarana bilər. Ona görə də həmişə polisdən nümayəndə çağırıram ki, nəsə hadisə baş versə, müdaxilə etsinlər"**

***- Bəs nə edəcəksiz? Problemi necə yoluna qoymağı düşünürsünüz?***

- Artıq onlar reketliyə keçiblər. Mən aldığım evi sökürəm. Biz dövlət tərəfindən pul verib o evləri almışıq. Onları sökəndə gəlib müqavimət göstərirlər, tərbiyəsiz sözlər danışırlar. Elə vəziyyət yaradırlar ki, kimsə məcbur qalıb onlarla əlbəyaxa olsun. Siz bilirsiniz də "Sovetski" necə yerdir. Orada xırda bir şeydən böyük bir hadisə yarana bilər. Ona görə də həmişə polisdən nümayəndə çağırıram ki, buralarda ol, nəsə hadisə baş versə, müdaxilə edin, asayişi qoruyun.

***- Bugünlərdə sakinlərlə icra hakimiyyəti əməkdaşları arasında narazılıq olmuşdu orda...***

- Bəli. Belə bir hadisə oldu. Sakinlərdən biri polisə müqavimət göstərdi. Heç mən polisə deməmişdim ki, bunu apar, ya aparma. Polis bunu götürdü qoydu maşına, götürüb apardı.

***- O vətəndaşın axırı necə oldu?***

- Vətəndaşın adı Zabur idi. Polisə aparılandan sonra mən də onu çağırdım. Gəldi, danışdıq. Dedim ki, evini, ətrafda sənə məxsus olan hər şeyi ölçüb-biçək. Nə kompensasiya düşürsə, hamısını verək. Eyvana da, dəhlizə də, tualetə də kompensasiya verək. Razılaşdı, hamısını hesablayıb verdik. Polisə gedib gələndən sonra adam oldu. Biri də var idi, arxitektur binada yaşayırdı. Onu da polis aparmışdı.

***- Faiq idi, deyəsən, onun adı...***

- Bəli, Faiqdən danışıram. Faiqi mən 4 dəfə kabinetimə çağırmışam, söhbət eləmişəm. Demişəm ki, a kişi, sənə nə lazımdırsa, gəl ürəyindəkini de. Orada bir az yer zəbt edib, deyir ki, buranı vaxtilə mən götürmüşdüm, onun da pulunu ver. Deyirəm, axı sənədin, sübutun yoxdur, zəbt eləmisən, dövlət bunun pulunu necə versin?! Qonşuluğunda ona aid olmayan bir yeri sökürsən, gəlir təhqir edir, ağzına gələni deyir. Axırda məni hədələyir ki, görərsən, mən səni türməyə göndərəcəyəm. Mənə deyir... Ona baxmayaraq, bu gün yenə sifariş göndərmişəm ki, Faiq kişi, gəl oturaq söhbət edək. Çünki onun üstündəki adamlar köçür *(üst mərtəbədəki- red.)*. Ağsaqqal adamdır da. Nümayəndələrim bu gün də gediblər, mənim ünvanıma iki-üç dənə layiqsiz söz işlədib, deyib ki, mən onun yanına getməyəcəyəm. Bax indi mən neyləməliyəm?

***- İbrahim müəllim, gerçəkdən siz indi neyləməlisiniz? Evindən çıxmayan vətəndaşla necə davranacaqsınız?***

- Nazirlər Kabinetinin qərarı var. Ancaq bu qərarı mən necə yerinə yetirim?! Mən orada bütün söküntülərə gedirəm. Deyirəm ki, bax sənin evini daşıyıram, sənə iki aylıq kirayə pulu verirəm, daşınma pulu verirəm, evinin pulunu verirəm, eyvanını da hesablayıb verirəm. Qayıdıb deyir ki, mən evimin damını metlaxla işləmişəm, o da mənim əmlakımdır, damımı ölç, oranın da pulunu mənə ver. Belə mümkün deyil axı... Bax mən belə insanlarla rastlaşıram, bilmirəm nə edim.

**"Bizə başqa yol buraxmırlar. Məcburuq ki, həmin adamların işığını, suyunu, qazını kəsək ki, gəlsin razılaşsın"**



**"Bu binaları harayasa çəkmək, sürüşdürmək, bərpa eləmək qeyri-mümkündür"**

Yenə də hövsələmi basıram, əsəblərimi boğuram, deyirəm, lənət şeytana. Yenə girirəm həmin adamın qoluna, yenə başlayıram onunla sakit dillə danışıram. Deyirəm, ay qardaş, bu mənim qərarım deyil. Belə olmaz axı. Elə ev var ki, mən oraya 5 dəfə getmişəm, həmin ailə ilə dəfələrlə söhbət eləmişəm. Elə adam var ki, çağıraram, gəlir və söhbət əsnasında razılaşır. Gedib deyir ki, mən heç bilməzdim icra başçısı bu qədər humanist adamdır.

***- Yəni söhbət aparmaq lazımdır, iş aparmaq lazımdır, eləmi?***

- Biz onsuz da iş aparırıq. Sadəcə, elə çətin tiplər var ki, onlarla dil tapmaq, razı salmaq çox çətindir.

***- Evlərinin kvadratmetri az olan vətəndaşlar deyir ki, onlara verilən kompensasiya ilə gedib heç yerdən ev ala bilməyəcəklər. Belə sakinlərə əlavə kömək edirsinizmi?***

- Müəyyən köməkliklər, güzəştlər olur. Deyirəm, gedək, həmin pula mən sənə bundan da yaxşı şəraiti olan, 10 kvadrat da artıq olan ev alım verim. Bir həkim var, heç orada yaşamır. Di gəl ki, od-alovdur. Dünən aparıb ona çox gözəl şəraiti olan ev göstəriblər. Deyib yox, siz mənə 100 minlik ev almalısınız. Bu, artıq reketlikdir.

***- "Sovetski"də sökülən bəzi binaların tarixi bina olduğu haqda iddialar yayıldı. Böyük ajiotaj da yaşandı. Siz bir icra başçısı kimi həmin binaları tarixi abidə hesab edirsinizmi?***

- Bu tarixi binalar komissiyanın razılığı ilə siyahıdan çıxarıldı. Komissiya da kimlərdən ibarətdir? Nazirlər Kabinetinin, AMEA-nın, Mədəniyyət və Turizm Nazirliyinin mütəxəssislərin razılığı ilə oldu. Ancaq həmin binalar, sadəcə, o dövrdə tikilmişdilər, vəziyyətləri isə biabırçı gündə idi. Siz onları görsəydiniz, deyərdiniz ki, bunun nəyi tarixdir.

***- Bəs deyirlər həmin binaları bərkitmə işləri görüb saxlamaq olardı...***

- Birincisi, o binalar yolun üstünə düşmüşdü. İkincisi də bərkitmə işləri üçün çoxlu xərc lazım idi. Yadınıza salırsınızsa, Qış bulvarı salınanda bir tarixi binanı sürüşdürmək üçün 2 milyon manatdan çox xərc çəkdilər, sonra da çat-çat oldu, məhv oldu getdi. Bu binaları harayasa çəkmək, sürüşdürmək, bərpa eləmək qeyri-mümkündür. Özü də həmin binalar tikildiyi gündən indiyədək intensiv istifadə olunublar. Bu üzdən də texniki cəhətdən çox pis vəziyyətə düşüblər. Yeni Faiqin yaşadığı bina tarixi binalardan biridir, ancaq gəlib onun arxasına baxsanız görərsiniz ki, ovulub tökülür, pis vəziyyətə düşüb. Divarında sement yox, qum yox. Hamısı gillə tikilib. Əl vuran kimi ovulub gedir, hamısı toza dönür. Yeni bu binanın tarixiliyini şərtləndirən üstündəki 5-6 element idi. O elementləri də sökdük, qoymuşuq bir qırağa ki, hər hansı bina tikiləndə o binalarda bu elementlərdən istifadə olunacaq. Orada 3-4 obyekt var ki, Abid müəllimin *(Abid Şərifov-red.)* göstərişi ilə onları saxlayırıq. Ancaq dediyim kimi, bu Faiqin yaşadığı bina texniki baxımdan biabırçı vəziyyətdədir. Biz onu saxlaya bilmirik. Komissiyanın razılığı ilə üstündəki elementləri də söküb çıxartdıq.

***- Bəs sakinlər niyə narazılıq edirlər?***

- Biz bu işə çox şəffaf və obyektiv yanaşırıq. Heç kimi incitmirik. Ola bilməz ki, biz orada kiminsə kompensasiyasını əskik verək. Artıq veririk, əskik vermirik. Samir Şərifovla, Abid Şərifovla bir neçə dəfə görüşmüşəm. O vəziyyətə gətirib çıxarırlar ki, bizim başqa yolumuz qalmır. Adamın nə qədər qoltuğuna girib dilə tutmaq olar?! Axı bu, dövlətin qərarıdır.

***- Narazı qalan sakinlərin başqa hansı arqumentləri olur?***

- "Qorqud" Assosiasiyasının prezidentinin də orada 3 mərtəbəli binası var. Çağırdım kabinetimə, söhbət elədik. Dedim ki, bu bina sökülməlidir, yolun üstünə düşür. 1500 manatdan hesabladıq ki, buna təxminən 950 min manat pul düşür. Deyir ki, yox, bu pul mənə azlıq edir. Soruşuruq bəs nə istəyirsən? Dedi ki, sən kənara dur, mən bu işi verəcəyəm məhkəməyə, məhkəmə yolu ilə buradan milyon yarım pul alacağam. Dedim ki, sən bir az ağıllı ol, dövlətin hesabına varlanmısan, indi də dövlətin əleyhinə gedirsən. Belə insanla nə etmək lazımdır?! Evinə gedən qazı, suyu, işığı kəsdik. Səhəri gün gəldi ki, bağışla, səhv eləmişəm. Razılaşdı, pulu aldı, çıxdı getdi. Ona görə də bizə başqa yol buraxmırlar. Məcburuq həmin adamların işığını, suyunu, qazını kəsək ki, gəlsin razılaşsın.

❑ **Azər AYXAN,**
❑ **Qələmə aldı Nərgiz LİFTİYEVA**

# Şantaj videoları Zamirə Hacıyevaya ötürülə bilərmi?

## Eldar Mahmudovla baş bankirin xanımının şəxsi tanışlıqları hələ quda olmazdan əvvələ söykənir...

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun rəhbərlik etdiyi quldur dəstəsi təkcə sahibkarları soyub-talamayıb, həm də hələ ki tam çevrəsi bilinməyən şəxslər barədə şantaj xarakterli videomateriallar toplayıb. Bunu bir neçə gün əvvəl MTN-in keçmiş zabiti Ərəstun Oruclu mətbuata müsahibəsində demişdi. Bildirmişdi ki, Eldar Mahmudovun qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlər var.**

Keçmiş MTN zabiti Mahmudovun videotekasındakı CD-lərin konkret sayını da açıqlamışdı - 2 min 800 şantaj videosu. Ərəstun Oruclu 2800 rəqəminin ona mötəbər mənbələrdən verildiyini diqqətə çatdırmış, lakin başqa detallar haqda danışa bilmədiyini söyləmişdi. Qeyd etmişdi ki, E.Mahmudovun "kinoçəkən"lərinin kameralarının hədəfində jurnalistlər, ictimai fəallar, tanınmış şəxslər, o cümlədən yüksək vəzifəli məmurlar və ailə üzvləri olublar. Ə.Oruclu həmin videoların hazırda harada olduğu haqda məlumatsız olduğunu da vurğulamışdı.

"Eldar Mahmudov həmin kompromatları harada saxlaya bilər" sualına cavab axtararkən ən çox diqqətçəkən persona sabiq nazirin qudası, hazırda axtarışda olan Zamirə Hacıyeva oldu.

### Niyə məhz Zamirə Hacıyeva?

Eldar Mahmudov 10 ilə yaxın Azərbaycanın milli təhlükəsizlik naziri olub. Bundan əvvəl isə hüquq- mühafizə orqanlarında yüksək vəzifələrdə çalışıb. Onun milli təhlükəsizlik naziri kimi fəaliyyəti dövründə çox təhlükəli oyunlara baş vurmasının fərqində olmaması, sadəcə, inandırıcı deyil. E.Mahmudov gec-tez əməllərinin üstünün açıla biləcəyini fəaliyyəti dövründə çox ciddi şəkildə nəzərə alıb. Onu 8 ay əvvəl tutduğu vəzifədən çıxarıblar, onun əmrinə müntəzir olan idarə rəislərini işdən çıxarıb, generallarını həbsə göndəriblər. Eldar Mahmudovun özü isə azadlıqdadır.

Onu niyə görə həbs etmirlər? Bəlkə həbs edə bilmirlər? Rəsmilər bu haqda susur. Mətbuatda isə E.Mahmudovun həbs edilməməsi ilə bağlı ən ağlabatan versiyalardan, iddialardan biri əlindəki şantaj videoları, kompromatların onu həbsdən sığortalaması ilə əlaqəlidir. Belədirsə, sabiq nazirin əlindəki materialları, onu həbsdən qurtaran videoları harada, kimdə saxlanıla bilər? Əlbəttə ki, xaricdə və ən etibar etdiyi şəxsdə.

Belə şəxs kimi Zamirə Hacıyeva ən ideal personadır. Eldar Mahmudovla Zamirə Hacıyevanı şəxsi tanışlıqları hələ quda olmazdan əvvələ söykənir. Eldar Mahmudov 2004-cü ildə nazir təyin olunandan 8 ay sonra - 2005-ci ilin martında "Qara kəmər" əməliyyatı baş tutdu. MTN-in gerçəkləşdirdiyi əməliyyat zamanı Hacı Məmmədovun bandası ifşa edildi. Bu əməliyyat Azərbaycanda uzun illər adam oğurlayan, sifarişlə qətl törədən Hacı Məmmədovun bandasının fəaliyyətinə son qoydu. Əməliyyatın planlaşdırılmasına rəvac verən isə 2005-ci il fevralın 10-da şəhərin mərkəzindən Zakirə Hacıyevanın oğurlanması faktı idi. Hacı Məmmədov Eldar Mahmudovun gələcək qudası Zamirə Hacıyevanı oğurlayıb özünün 2-ci həyat yoldaşı Nailə Bağırovanın Keşlə qəsəbəsindəki evində girovluqda 1 ay saxlamışdı. Z.Hacıyevanın həyat yoldaşı Cahangir Hacıyevdən 10 milyon avro tələb etmişdilər. "Qara kəmər" keçirilərkən Z.Hacıyevanın saxlandığı yerin qapısı önündə dayanmış banda üzvü odlu silahdan açılan atəşlə öldürülmüşdü. Sağ-salamat azad ediləndən sonra Zamirə Hacıyevanın onun azad edilməsinə rəhbərlik etmiş bir şəxsə dərin minnətdarlıq hissinin olması da təbiidir. Sonradan Mahmudovlarla Hacıyevlərin qohum olmasında bu olayın yer alması ehtimalı da böyükdür.

Z.Hacıyeva ilə Eldar Mahmudovu yaxınlaşdıran bir qadının girovluqdan azad edilməsi və üzərindən yaranan qohumluq bağlarıdır. Tərəflər bir-birinin inamını, etibarını, etimadını 10 il əvvəl qazanıb və bu illər ərzində qohumluq bağları bu güvəni bir qədər dərinləşdirib.

Z.Hacıyevanın girovluqdan azad edilməsindən 10 il sonra E.Mahmudovu qəfil vəzifəsindən çıxardılar, yaxın ətrafına daxil olan şəxsləri həbs etdilər. Belə bir şəraitdə sabiq nazir həbs olunmadı. Onun əlindəki kompromatlardan istifadə edərək azadlıqda qala bilməsini inandırıcı edən kifayət qədər əsaslı arqumentlər var.

Elə isə 2800 video şəklində olan kompromatları E.Mahmudovun ən etibarlı şəxslərindən birinə, ona inan, etimad göstərən, güvənən şəxsə verərək gizlətməsi, ehtiyac yarandığı təqdirdə ictimailəşdirilməsi haqda qərar qəbul etmə səlahiyyəti verməsi də mümkündür.

Belə bir şəxsin Zamirə Hacıyevanın olmasına maneçilik törədəcək hər hansı bir problem ortada yoxdur.

Bir məqama da diqqət edək - Z.Hacıyevanın adı gündəmə məhz Eldar Mahmudovun əlində 2800 videonun olması xəbəri ictimailəşəndən sonra gəlib. Buna qədər Zamirə Hacıyevanın həyat yoldaşı, hazırda həbsdə olan Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin adı aylarla mətbuatın gündəmində olsa da, Z.Hacıyevanın barəsində məlumatlara rast gəlinmirdi.

Üstəlik, 2800 video haqda məlumatlar ictimailəşəndən sonra Z.Hacıyevanın Beynəlxalq Bankın xəzinəsindən həyat yoldaşının pul qabı kimi istifadə etməsi yada düşdü. Z.Hacıyevanın barəsində cinayət işi başladı, onu axtarışa verdilər. Cahangir Hacıyevin vəkili Aqil Layıcov isə müsahibə verib dedi ki, Z. Hacıyevanın barəsində məhkəmə qərarı olması doğru deyil: **Sitat: "Zamirə Hacıyeva on ildən artıqdır xarici ölkədə yaşayır və oranın vətəndaşıdır. O, xarici ölkə vətəndaşı olduğu üçün ekstradisiyası da mümkün deyil. Buna görə də həmin qərar formal xarakterlidir. Qərarda onun vəkili kimi adı qeyd olunan şəxs də heç vaxt Zamirə Hacıyevanın vəkili olmayıb, onunla heç bir əlaqəsi yoxdur".**

Vəkilin açıqladığı məlumatlar Z.Hacıyevanın E.Mahmudovun kompromatlarını saxlamaq üçün ən ideal şəxslərdən biri olması haqda nəticəyə gəlməyə imkan verir. A.Layıcov deyir ki, Z.Hacıyeva xarici ölkə vətəndaşıdır və onun ekstradisiyası da mümkün deyil. Bu məqam Z.Hacıyevanın E.Mahmudovun kompromatlarını ən etibarlı şəkildə qoruyub saxlamaq üçün imkanlara malik olduğunu söyləməyə əsas verir. Tamamilə mümkündür ki, E.Mahmudov həbsindən illər öncə əlindəki materialları Hacıyevlərin xaricdəki mülklərindən birinin zirzəmisində, mansardında gizlədilmiş seyfin içində, ya da hansısa gözəllik ilahəsi şəklində imarətin bir küncünə qoyulmuş heykəlin içindəki gizli dolabda saxlayır və Azərbaycanda azadlığını təmin etmiş olur. Z.Hacıyevanın həyat yoldaşı Cahangir Hacıyevin ittiham aktı üzrə dövlətə vurulmuş zərər kimi göstərilən məbləğin bir neçə qat artığını ödəməsinə baxmayaraq azad edilməməsi də, faktiki olaraq, girovluqda saxlanması da bu məqamla əlaqəli ola bilər.

Qeyd edək ki, Z.Hacıyeva Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) maddəsi ilə suçlu bilinir, Nərimanov Rayon Məhkəməsi iyunun 1-də barəsində 4 ay müddətə həbs-qətimkan tədbirinin seçilməsi haqda qərar verib.

❑ **E.HÜSEYNOV**





## Həyat yoldaşı Eldar Mahmudovun ölüm xəbərindən danışdı: "Səhhətində problemlər var, amma..."

**Bir neçə gündür ölkə mətbuatında sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun ölüm xəbəri yayılıb. Yayılan məlumatda sabiq nazirin evinə qapanaraq içki aludəçisi olduğu, bu səbəbdən ürəyində problemlər yaranaraq, yaşadığı bağ evində vəfat etməsi ilə bağlı xəbərlər ölkə KİV-lərində səngimək bilmir.**

Yayılan xəbərin kütləviliyini və ölkə mətbuatında rezonans doğurduğunu nəzərə alan bizimyol.info saytı məsələ barədə açıqlama almaq üçün sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun yaşadığı evə zəng edib. Dəstəyi qaldıran sabiq nazirin həyat yoldaşı Tahirə Mahmudova sayta qısa açıqlamasında yayılan məlumatın yalan olduğunu bildirib. "Belə məlumatlar hardan çıxır bilmirəm. Bəli, Eldar müəllimin səhhətində problemlər var, amma ölüm faktı yoxdur. Heç elə bir şey də olmayıb. Məlumat yalandır".

Qeyd edək ki, Eldar Mahmudovun həyat yoldaşı Tahirə Mahmudova Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının katibi vəzifəsində çalışıb. O, səhhətində problemlər yarandığı üçün öz ərizəsi ilə işdən çıxıb.



Fəzail Ağamalı



Aslan İsmayılov

# İstintaq sabiq naziri ortaya çıxaracaqmı...

## Keçmiş MTN şefinin statusu bilinmir; **Fəzail Ağamalı:** "Əminəm ki, istintaq başa çatandan sonra Azərbaycanın qanunları çərçivəsində Eldar Mahmudov da cəzasını alacaq"

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov vəzifəsindən çıxarılarkən onun həbs edilməsi xəbəri yayılmışdı. Lakin sonradan bu məlumat təsdiqini tapmadı. Bu gün də sabiq nazirin statusu bilinmir. "MTN işi" üzrə 20-yə yaxın yüksək çinli xüsusi xidmət orqanı zabitləri, generallar həbs ediliblər. Eldar Mahmudovun adı həmin tutulan şəxslər siyahısında yoxdur. İş üzrə 1 şəxs ev dustağı, 1 şəxs isə qaçaq kimi axtarışdadır. Ev dustağı olan MTN-in Əməliyyat-texniki idarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, axtarışda olan isə Eldar Mahmudovun badə yoldaşı, sahibkarları MTN-çilərin toruna salmaqda ad çıxaran "Akula" ləqəbli Akif Mustafayevdir.**

Göründüyü kimi, Eldar Mahmudov "MTN işi" üzrə təqsirləndirilən, ev dustaqlığında olan, axtarışa verilmiş şəxs də deyil.

E.Mahmudovun "MTN işi" üzrə hazırda hansı statusda prosesə cəlb edilməsi haqda istintaqın rəsmi mövqeyi də mövcud deyil...

Maraqlıdır, niyə bu haqda ictimaiyyətə açıqlama verilmir?

**Deputat Fəzail Ağamalı deyir ki, iş üzrə istintaq ölkə prezidentinin nəzarəti altındadır:** "Eldar Mahmudovun barəsində konkret qərarın qəbul edilməməsinin istintaq tədbirləri ilə bağlı olduğunu düşünürəm. Əminəm ki, istintaq başa çatandan sonra Azərbaycanın qanunları çərçivəsində Eldar Mahmudov da cəzasını alacaq. Buna şübhəniz olmasın".

**F.Ağamalı istintaqın gedişatından məlumatsız olduğunu diqqətə çatdırdı:** "Sadəcə olaraq, proseslərin məntiqinə söykənərək bu nəticəyə gəlmişəm ki, istintaq gedir. İstintaq birbaşa Eldar Mahmudovla bağlıdır. Onun ətrafında da araşdırmalar gedir. Görünür, məsələ düşündüyümüz qədər sadə deyil. Ona görə də Eldar Mahmudovun barəsində söz-söhbətin yaranması üçün şərait var. İstintaqın nəticələri bəlli olduqdan sonra onunla bağlı vəziyyət aydınlaşar".

**F.Ağamalı qəzetimizə ötən açıqlamasında "Qətiyyən şübhə etmirəm ki, bütün bu olaylarda Eldar Mahmudovun birbaşa günahı var, bütün bu proseslərə o rəhbərlik edib" demişdi. Deputatın belə bir şəxsin azadlıqda gəzməsinə, ümumiyyətlə, onunla bağlı rəsmi qurumların susqunluq nümayiş etdirməsinə münasibəti belə oldu:** "İstintaqın gedişinə müdaxilə etmək istəmirəm. Bildiyim budur ki, istintaq ciddi və obyektiv şəkildə davam etdrilir. Bu birmənalıdır".

**Tanınmış hüquqşünas, "Viza" hüquq firmasnın rəhbəri Aslan İsmayılov E.Mahmudovun azadlıqda qalaraq barəsində rəsmi qurumların susqunluq nümayiş etdirməsini onun qol qoyduğu cinayətləri təkbaşına törətməməsi ilə izah edir. Deyir ki, E.Mahmudov həbs ediləcəyi təqdirdə onun qanunsuzluqlarını öz imzaları ilə təsdiqləyən prokurorluq və məhkəmə sistemi rəsmiləri də cəzalandırılmalıdır:** "Axı Eldar Mahmudovu necə tutsunlar, o, sabah deyəcək ki, mən heç nəyi təkbaşına etməmişəm. Eldar Mahmudov adamları qanunsuz həbs edib, istintaq aparıb. İstintaqa nəzarət edənlər hara baxıb? Məhkəmə hakimiyyəti də həmin qanunsuzluqları öz hökmlərində qanuni don geydirməklə təsdiqləyib. Bu gün Eldar Mahmudovu həbs etsələr, o da deyəcək ki, həmin adamlar da gəlib cavab versinlər. Çünki bu qanunsuzluqları birgə etmişik".

**A.İsmayılov deyir ki, əgər siyasi hakimiyyət iş üzrə həbslərin davam etdrilməsini, bütün günahı olan şəxslərin həbs edilməsini tələb etsə, hazırda həbs edilənlərdən qat-qat çox vəzifə daşıyıcısı tutulmalıdır:** "Rəhbər vəzifədə olub qanunsuzluqlara, cinayətlərə göz yumanları da həbs etməlidirlər. Eldar Mahmudovun, onun dəstəsinin cinayətləri bağışlanılası cinayətlər deyil və kifayət qədər çoxdur. Mahmudov istəsəydi belə o qədər cinayəti təkbaşına törədə bilməzdi. Problem ondadır ki, Eldarı cəlb etsələr, o da özünün ranqında olanların həbsini tələb edəcək".

**A.İsmayılov deyir ki, "MTN işi" üzrə həbs edilən sabiq MTN-çilər həbs edildikdən sonra E.Mahmudovla bağlı ifadələr veriblər:** "Əminəm ki, bu gün həbsdə olan MTN-çilər ifadələrini çoxdan veriblər. Heç ifadə verməsəydilər belə orada baş verənlər hamıya bəlli idi. Eldar Mahmudov, onun əlaltıları həmin cinayətləri 1 günün içində deyil, illərlə törətməkdə davam ediblər. Mənim özümlə bağlı da 10 dəfə cinayətləri olub. Əgər o dəstə ifşa edilməsəydi, bu gün mən də həbsdə olardım. Yəni onlar bu cinayətləri istəsəydilər belə gizlədə bilməzdilər".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016



# Araq orucu

Samir SARI

**Bizim kəndin yeyib-içən adamlarının bir xasiyyəti vardı, toyda-nişanda spirtli içki içərkən ilk badələr qaldırılanda mütləq biri deyərdi ki, Allah günahımızdan keçsin, götürün, bunu vuraq, mütləq o biri də deyərdi ki, ay qardaş, ürəyini Allahla düz tut, nə qədər içirsən, iç, əsas odur ki, içib problem yaratmayasan.**

Sonrakı badələrdə günah-filan, içkinin haram olması-zad yada düşməzdi.

Bununla belə, kəndimizin yeyib-içən adamlarının çoxu Məhərrəmlikdə və Ramazanda araq içmirdilər və təklif olanda deyirdilər ki, bu aylar ağır aylardır, içmək olmaz. Hərçənd elə adamlar da vardı ki, ildə 365 gün içirdilər və nədənsə ad günləri mütləq toy məclislərinə düşürdü - həm də gah payızda, gah qışda, gah yazda, gah da yayda. Toyun qızğın yerində bir də görürdün ki, o başdan biri qalxdı və təntənəli şəkildə dedi, bu gün əminin ad günüdür, birini də əminin sağlığına vurun.

İndi baxıram ki, dost-tanışların arasında da bizim kəndçilər kimi araq orucu tutanlar var. Bunlar o adamlardır ki, klassik oruc tutmurlar, gündə üç öynə yeyirlər, 2 litrə yaxın da maye (çay, şirə, mineral su, kofe, elə-belə su, ayran və s.) qəbul edirlər, amma spirtli içki *(araq, pivə, çaxır və s.)* içmirlər. Onlar əmindirlər ki, bu ayda içmək günah, içməmək savabdır.

Bu yerdə ilahiyyatçı olub da "hocam, Ramazanda içkidən imtina etmək savadırmı" kimi suallara cavab verməyə ehtiyac yoxdur. Aydın məsələdir ki, bir adamın öz orqanizminə spirtli içki qəbul etməsinin və ya etməməsinin cinayət-prosessual qanunvericilik baxımından heç bir əhəmiyyəti yoxdur. Dünyəvi qanunlar spirtli içki içməyə icazə verir, dini ehkamlar isə məsləhət görmür. Necə deyərlər, əmoğlu, vallah, bu araq içiləsi zəhər deyil, yenə də özün bilərsən.

Yeri gəlmişkən, alkoqolun kimyəvi tərkibi gerçəkdən də zəhərdir. İstənilən kimya müəllimi bunu təsdiq edər. İntəhası, bu zəhər birbaşa öldürmür, yavaş-yavaş öldürür. Dərhal öldürən zəhərlər keçmişdə dəb olub, badədən bir qurtum alan kimi məsələ həll olurmuş, indiki spirt-zəhərlərdən isə gərək adam uzun müddət və çox-çox hortlada ki, axırda qaraciyər dilə gələ.

Amma bir iş də var ki, araq orucu yeyib-içən adamlara mənəvi rahatlıq gətirir. Belə etməkdə onların məqsədi heç də yaxın və uzaq perspektivdə İnkir-Minkiri aldatmaq deyil. Adamlar səmimi şəkildə hesab edirlər ki, 11 ayın sultanında vacib dini ayinləri yerinə yetirməsələr də, heç olmasa, ona qarşı çıxıb kafirlik etməsinlər.

Biri var, oturub günləri sayır. O gün sosial şəbəkədə yazıb ki, 20 gün qaldı... Dostları soruşur ki, nəyə? O da cavab yazır ki, sərin çex pivəsi ilə görüşə... Demək, camaat son iftarını açıb bayram edən gün bu da supermarketə cumub üç-dörd banka pivə alacaq və mədəsində əhəng söndürürmüş kimi sümürəcək.

Tutaq ki, içki içməmək imtina edilməli olan günahlardan biridir, bəs qalan günahlar necə olsun? Bəs zina məsələsi? Bəs qul haqqı yemək haqq-hesabı? Bəs zalımın qarşısında susmaq?

Burada vəziyyət dəyişir. İçki orucu tutanların bir çoxu eşq-məşq məsələsində 7/24 performans göstərməyə hazırdır. Eləcə də o biri məsələlərdə. Yalan danışmaqdan, ayağına gətirilən rüşvəti almaqdan neçə adam imtina edər?

Hər halda, 1 aylıq da olsa insanın öz nəfsinə qalib gəlməsi alqışlanmalıdır. Bir də var, adam heç bir gün də dözə bilməyə, nəfsinin qulu olaraq qala. O gün Nəsimi Nəbizadə mənə bu xüsusda bir lətifəyə oxşar hadisə danışıb, sanıram ki, o söhbətin iqtibas olunmasının yeridir.

Demək, Murad Köhnəqalagilin kəndində yaxşı pul qazanan və yeyib-içən bir adam varmış. Bu adam oğlunu evləndirib, qızını köçürəndən sonra hər gün içməyə başlayır və buna görə arvadıyla arasında problem yaranır. Evin xanımı hər gün onu danlayır ki, çox içməsin. Beləcə, arvad kişini o qədər bezdirir ki, bir gün yeyib-içən adam kəskin bəyanat verir: "Vallah, bir də maa "işmə" desən, iskanımı da götürüb gedəjəm dədəmin xarabasına".

# "Az qala deyirlər ki, rus qoşunları Azərbaycandan özü çıxıb"

**Rus qoşunlarının Azərbaycandan çıxarılması hələ də müxtəlif prizmalarda müzakirə olunur. Bir neçə gün əvvəl isə sosial şəbəkələrdə "Rus qoşunlarının Azərbaycandan çıxarılmasının səbəbkarı Əbülfəz Elçibəy deyil, Rəhim Qazıyevdir" - kimi məlumatlar yayılıb. Məlumatı yayanlar iyunun 15-də Məhəmməd Hatəminin yas mərasimində Rəhim Qazıyevin bu iddianı təsdiq edən rəsmi sənədlər göstərdiyini bildirirlər. Daha əvvəl isə bu cür iddia ilə Nemət Pənahlı çıxış etmişdi. Nemət Pənahlı musavat.com-a müsahibəsində iddia edib ki, rus qoşunları Azərbaycandan öz istəkləri ilə çıxıblar: "Bu gün də deyirlər ki, rus ordusunu Azərbaycan xalqı buradan çıxarıb. Bununla qəti şəkildə razılaşmıram... Rus ordusunu nə ilə, hansı güclə çıxardılar? Əgər AXC iqtidarının rus ordusunu çıxarmaq qüdrəti var idisə, elə erməni daşnaklarını Qarabağdan çıxaraydı. Sadəcə, rus geri çəkildi, burada da iblis torunu qurmuşdu ki, Azərbaycanda vətəndaş müharibəsi salacaq, elə bir qırğın yaradacaq ki, Xocalı da, 20 Yanvar da yaddan çıxacaq, xalqa sübut edəcəklər ki, görürsüz, biz müstəqil, rus olmadan yaşaya bilmərik. Gəncədə də plan bu idi ki, Ali Sovet çağırılacaqdı, prezident elan ediləcəkdi və rus ordusu Azərbaycana qayıdacaqdı. Biz bu ssenarini pozmuşuq"...**



**Oqtay Qasımov:** "Rəhim Qazıyev 20 fevral 1993-cü ildə vəzifədən azad olunub, amma rus qoşunları Azərbaycandan mayın 25-də çıxarılıb"



**Mirmahmud Mirəlioğlu:** "Rus qoşunları ölkədən çıxarılanda Rəhim Qazıyev artıq müdafiə naziri deyildi, o, necə prosesə rəhbərlik edə bilərdi?"



**Hikmət Hacızadə:** "Səfir kimi Elçibəyin xüsusi tapşırığı ilə rus qoşunlarının Azərbaycandan çıxarılması ilə bağlı danışıqlar aparırdım"

**O zamankı prezident Əbülfəz Elçibəyin köməkçisi Oqtay Qasımov məsələ ilə bağlı musavat.com-a bildirib ki, rus qoşunlarının ölkədən çıxarılmasında Elçibəyin əməyi danılmazdır:** "Azərbaycanda qəribə bir mənzərə yaranıb. Bəzi adamlar ağlına gələn hər şeyi danışmağa başlayıblar. Az qala deyirlər ki, rus qoşunları Azərbaycandan öz-özünə çıxdı və yaxud hakimiyyət komandasında nazir postu tutmuş bir adamın sayəsində oldu. Bunlar hamısı absurd yanaşmalardır. Rəhim Qazıyev 20 fevral 1993-cü ildə vəzifədən azad olunub. Amma rus qoşunları Azərbaycandan mayın 25-də çıxarılıb. Arada ən azı 95 gün fərq var. Necə ola bilir ki, 95 gün əvvəl vəzifədən azad olunmuş şəxs bu prosesi həyata keçirsin? Bu, nə qədər məntiqlidir? İkincisi, hakimiyyət başında prezident Əbülfəz Elçibəy idi, demək, bütün baş verən proseslər hamısı birbaşa onun siyasi iradəsinin nəticəsində həyata keçirilib. Elçibəyin məhz təkidi və israrı nəticəsində rus qoşunları Azərbaycandan çıxarılıb. Rusiya prezidenti Boris Yeltsinlə Əbülfəz Elçibəy 1992-ci ilin mayında Moskvada təkbətək keçirilən görüşdə də bu məsələləri müzakirə etmişdilər. Orada müzakirə olunan prinsipial məsələlərin əksəriyyətində demək olar ki, razılığa gələ bilməmişdilər. Birinci növbədə Azərbaycanda yerləşən keçmiş sovet ordusunun statusu ilə bağlı məsələdə razılıq olmamışdı. Yeltsinin istəyi ondan ibarət idi ki, rus qoşunları burada dislokasiyaları davam etsinlər. Elçibəy bunu qəbul etmədi. İkinci məqam həmin qoşunların dövlət sərhədinin mühafizəsinin həyata keçirilməsi ilə bağlı idi, Elçibəy prinsipial olaraq ona da razılıq verməmişdi. İndi deyilənlər qeyri-ciddi yanaşmalardır. Bir kəlamdakı kimi, məğlubiyyət yetimdir, ona heç kim sahib çıxmaq istəmir. O vaxt AXC hakimiyyəti başlanan qiyamı yatırda bilmədi və uğursuzluğa düçar oldu. Bu uğursuzluğun bütün məsuliyyəti prezident Elçibəyin boynuna qoyuldu. Elçibəy də hakimiyyət komandasının başında duran şəxs kimi məsuliyyət daşıyan şəxsdir. Daha çox ona irad bildirilir. Amma indi necə olur ki, AXC hakimiyyətinin apardığı proses və uğurlu addımların artıq şərikləri çoxalıb? Elçibəyin fəaliyyəti danılır. Rus qoşunlarının Azərbaycandan çıxarılması birbaşa Əbülfəz Elçibəyin və yaxın silahdaşlarının iradəsi idi ki, bunu həyat keçirdilər. Bunu hansısa komandada olmuş və işdən çıxarılmış bir şəxsin ayağına bağlamaq yanlış təsəvvürdür".

**O zaman deputat olmuş Mirmahmud Mirəlioğlu isə musavat.com-a bildirib ki, faktlar açıq-aşkar çox şeyi deyir:** "Rus qoşunları ölkədən çıxarılanda Rəhim Qazıyev artıq müdafiə naziri deyildi. O, vəzifəsindən bir neçə ay əvvəl azad edilmişdi. Faktları nəzərə almaq lazımdır. Sabah da biri çıxıb deyəcək ki, testi Azərbaycana mən gətirmişəm, onu da ciddiyə alacaqlar?"

**AXC hakimiyyəti dönəmində baş nazir olmuş Pənah Hüseyn isə meydan.tv-yə açıqlamasında bildirib ki, Azərbaycandan Rusiya qoşunlarının çıxarılması AXC hakimiyyəti dövründə, Əbülfəz Elçibəyin prezidentliyi dönəmində başlanıb və 25 may 1993-cü ildə yenə onun prezidentliyi dönəmində, keçmiş SSRİ və Avropa məkanında ilk olaraq başa çatıb:** "Odur ki, heç şübhəsiz yeni dövr tarixinin ən mühüm hadisələrindən biri olan bu olayın, prezident tərəfindən müəyyən edilib ifadə olunan və həyata keçirilən bu məsələnin Əbülfəz Elçibəyin adı ilə bağlı olması tamamilə təbii, haqlı və ədalətlidir. Bu proseslə bağlı müdafiə naziri kimi Rəhim Qazıyevin, yaxud bir başqasının hansısa bu və ya digər sənəddə imzasının olması "rus qoşunlarını Azərbaycandan mən çıxarmışam" iddiasına əsas verə bilməz. Məsələn, Azərbaycanı axırıncı rus əsgərinin tərk etdiyi gün - 25 may 1993-cü il tarixində Gəncə və Şəmkirdə dislokasiya edilən 104-cü hava-desant diviziyasının çıxarılması hesab edilir. Bu diviziyanın çıxarılması ilə bağlı icra xarakterli işlərə aid təhvil-təslim aktlarında və digər sənədlərdə həmin dviziyanın komandanlığı ilə Azərbaycanın o vaxtkı müdafiə naziri Dadaş Rzayevin və Müdafiə Nazirliyinin rəhbərliyinə daxil olan digərlərinin imzaları var, konkret işlər onun tərəfindən aparılıb. İndi Dadaş Rzayev bunu əsas göstərib iddia etsin ki, rus qoşunlarını Azərbaycandan o çıxarıb? Bu nədirsə, Rəhim Qazıyevin iddiası da- əgər o həqiqətən belə iddia ilə çıxış edirsə- o cür şeydir". **Onun sözlərinə görə, həm Azərbaycan Müdafiə Nazirliyi, həm də siyasi rəhbərliyə daxil olan şəxslər arasında 104-cü diviziyanın Azərbaycandan dərhal çıxarılmasına münasibət birmənalı deyildi, tərəddüdlər vardı və məsələni şəxsən prezident Elçibəyin mövqeyinin dəyişməz qalması həll etdi:** "Qeyd etmək lazımdır ki, 104-cü diviziyanın çıxarılması ilə bağlı hüquqi- siyasi və texniki- təşkilati sürəc Rəhim Qazıyevin artıq müdafiə naziri vəzifəsindən azad edilməsindən sonra başlayıb və başa çatdırılıb və ona heç bir aidiyyəti yoxdur. Odur ki, Rusiya qoşunlarını Azərbaycandan Əbülfəz Elçibəyin çıxarması, həm ümumi siyasi, həm də konkret xüsusi mənada tam həqiqətdir və birmənalı şəkildə onun adı ilə bağlıdır".

**AXC hakimiyyəti dövründə Azərbaycanın Rusiyada fövqəladə və səlahiyyətli səfiri işləmiş, politoloq Hikmət Hacızadə isə "Cümhuriyyət"ə bildirib ki, bu adamlar doğru danışmır:** "Hamısı boş-boş danışır. Bu prosesləri Əbülfəz Elçibəy başlamışdı. Bu Əbülfəz Elçibəyin prinsipi idi ki, Azərbaycandan bütün xarici qoşunlar çıxarılsın. Mən o dövrdə Rusiyada səfir işləyirdim və Əbülfəz Elçibəyin xüsusi tapşırığı ilə rus qoşunlarının Azərbaycandan çıxarılması ilə bağlı danışıqlar aparırdım. Texniki məsələləri həll edirdim, sazişlər imzalanırdı... İndi Nemət Pənahlı da, Rəhim Qazıyev də deyirlər ki, biz çıxarmışıq rus qoşunlarını Azərbaycandan. Nə isə... Fikir verməyək".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016

# "Bildiyim şeylərin çox cüzi hissəsini açıqlamışam"

## Ərəstun Oruclu: "Hazırda Eldar Mahmudov kimlərsə tərəfindən himayə olunur"

**Bir həftədir gündəmdə müzakirəsi gedən bu mövzu ilə bağlı "Yeni Müsavat" Ə.Oruclu ilə söhbət edərək, bəzi məqamlara aydınlıq gətirdi**

**MTN-in keçmiş zabiti, "Şərq Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclunun "Eldar Mahmudovun rəhbərlik etdiyi quldur dəstəsi təkcə sahibkarları soyub-talamayıb, eyni zamanda ölkənin tanınmış şəxsləri barədə şantaj xarakterli videomateriallar toplayıb" açıqlaması cəmiyyətdə ciddi müzakirə obyektidir. Ə.Oruclu bu videokasetlərin sayının 2800 olduğunu və sözügedən rəqəmin ona mötəbər mənbələrdən verildiyini deyib.**

***- Ərəstun bəy, öncə bu rəqəm məsələsindən başlayaq. Məhz 2800 videogörüntünün olmasına əminlik sizdə hardandır? Nə üçün 2799 və ya 2801 yox, məhz 2800?***

- 2800 rəqəmi təbii ki, təxmini rəqəmdir. Məndə bunun statistikası yoxdur. Məndə məlumat var ki, təxminən 2800 videokompromat hazırlanıb. Onların bir çoxlarından konkret insanlara qarşı istifadə olunub. Cəmiyyət onların bir neçəsinin yayılmasının da şahidi olub. İctimai-siyasi şəxslərlə bağlı belə videokompromatların cəmiyyətdə yayılması hadisəsi baş verib. Ona görə də burda nəyin təəccüb doğurduğu mənə çatmır. Rəqəminmi? Mən bu rəqəmləri öz mənbələrimdən əldə etmişəm. Bu mənbələr də hər zaman etibarlı olub. Eldar Mahmudovun işdən qovulacağı ilə bağlı proqnozumuz da zamanında həmin mənbədən verilmişdi. Ona görə də mən kiminsə şübhələrini dağıtmaq üçün durub ortaya 2800 video qoyası deyiləm ki? Kimlərinsə buna inanmamaq və ya başqa don geyindirmək haqqı var. Bu, onların öz işidir. Mənim hamının qarşısında sinəmə döyüb, and-aman etmək fikrim yoxdur. Amma mənbələrimə kifayət qədər etibar edirəm. Onlar illərlə işlədiyim mənbələrdir və heç bir zaman da məni çətin vəziyyətə salmayıblar. Mən "Eldar Mahmudovun quldur, killer dəstəsi" ifadələrini hələ 2008-2009-cu illərdə işlədirdim. ADNA terrorunun bir illiyində, 2010-cu ildə elə sizin qəzetə yazımda fikrimi bildirmişəm ki, bu terroru elə daxildən, xarici sifarişçilərin istəyi ilə törədiblər. Bu cinayətin nə şəkildə təhqiq olunması, məhkəmənin hansı hökmü çıxarması da heç kimdə şübhə doğurmamalıdır. Necə olur ki, bu boyda terroru törədən bir avtobus sürücüsünün köməkçisi, avtoyuma məntəqəsinin işçici və dönərçi imiş. Bu, absurddur və ağlabatan bir şey deyil.

**"MTN rəhbərliyi həmin videokompromatları xarici xüsusi xidmət orqanlarının sifarişi ilə hazırlayıbsa, bu, artıq milli təhlükəsizlik məsələsidir"**

***- Bu videogörüntü iddiası ilə bağlı ciddi müzakirələr getdi. "Azadlıq" qəzeti, eləcə də Mehman Əliyev bu açıqlamanın gündəmi dəyişməyə xidmət etdiyini iddia etmişdi. Bundan başqa, M.Əliyev videogörüntülərin yer aldığı disklərin sayının 2800-dən çox olduğunu da dedi... Bütün hallarda dediklərinizə bir qədər şübhə vardı...***

- Mən "Azadlıq" qəzetini oxumadığım üçün onların nə yazmasından da xəbərim yoxdur. Gündəmi dəyişmək deyəndə nəyi nəzərdə tuturlar? Bəyəm gündəm var ki, onu da dəyişməyə cəhd edilsin? Gündəm varsa, göstərsinlər ki, nədən ibarətdir. 2000-3000 nəfərin oxuduğu yazılardır gündəm? Gündəm məhz bu məsələdir ki, bir həftədir müzakirədən çıxmır və kifayət qədər də ciddi məsələdir. Neçə-neçə saytlardan bu müsahibəni çıxartdırıblar və bu, səbəbsiz deyil. Ona görə də kimin nə deməsi, yazması şəxsi işləridir. Bu da Mehman Əliyevin fikridir. O da çox şey deyir ki, mən onunla razılaşmıram və razılaşa da bilmərəm.

***- O videogörüntülərin, kasetlərin taleyi, harda, kimlərin əlində saxlanması barədə bir məlumatınız varmı? Versiyalar dolaşır ki, həmin görüntülər kimlərinsə əlindədir və zaman-zaman təzyiq rıçaqı kimi istifadə olunur, kimlərinsə hələ də azadlıqda qalması, cəzalandırılmamasının qarantıdır. Əslində o kasetlərin taleyi, hansı məqamda nə cür istifadə olunacağı ilə bağlı məlumatınız varmı?***

- Əvvəla, mətbuatda bununla bağlı çox yanlış bir söz işlədilir - kaset. Bizim dövrümüzdə artıq kasetə ehtiyac yoxdur. 2 GB-lıq flaş-karta bunların hamısını yükləmək mümkündür. 2 GB olmasın, 16 GB olsun. Bundan başqa, adi bir veb sayt yaratmaq, həmin materialları ora yükləyib saxlamaq olar. Və ya elektron poçtun layihə deyilən fayllarında saxlamaq mümkündür. Bunun min cür üsulu var indiki dövrdə. Onların üzə çıxa biləcəyi ehtimalı isə qüvvədə qalır. Çünki onlar şantaj vasitəsi kimi istifadə olunub və gələcəkdə də oluna biləcəyi istisna deyil. Bundan qaçmağın yolu ilə parlamentin müvafiq qanunun qəbul edilməsidir. İnsanların şəxsi həyatının toxunulmazlığı ilə bağlı qəbul olunan bir qanun olmalıdır. İnsanların şəxsi həyatı konstitusiya ilə qorunursa, bütün bu tipli məlumatların yayılması - istər media, istərsə hansısa anonim mənbə tərəfindən - cinayət sayılmalıdır. Bununla bağlı Cinayət Məcəlləsindəki maddələr sərtləşdirilməlidir ki, sabah bu tip şeylər yayıldıqda belə onu yayan medianın özü də cinayət məsuliyyətinə cəlb olunsun. O media rəhbəri də ağır şəkildə cəzalandırılsın. Məsələn, 8-10 il həbs cəzası alsın. Yalnız o halda həmin videomaterialların xofunun cəmiyyətin üzərindən götürülməsinə nail ola bilərik. Bunun hüquqi bazası hazırlanmalıdır. Bundan başqa, prokurorluq orqanları bununla bağlı ətraflı araşdırma aparmalıdır. Yəni həmin cinayətdə iştirak etmiş MTN rəsmiləri, başda Eldar Mahmudov olmaqla, bu məsələ ilə bağlı xüsusi istintaqa cəlb olunmalıdır, xüsusi cinayət işi açılmalıdır. Çünki bunların hamısı qanunsuz fəaliyyətdir. Bu, vətəndaşların hüquq və azadlıqlarına qarşı yönəlmiş qanunsuz, antikonstitusion fəaliyyətdir. Və bununla bağlı ətraflı təhqiqat aparılmalıdır. Ortaya sübutlar qoyulmalıdır. Onlardan həmin materialların hara, kimlərə ötürülməsi, yayılması məlumatları əldə olunmalıdır. O şəxslərin də əlindən bu material götürülməli, dilindən iltizam alınmalıdır. Yəni artıq bu materiallarla əlaqəsi olmuş hər bir şəxs bilməlidir ki, onun başının üstündən Domokl qılıncı asılıb. Sabah bu materiallar yayılacağı təqdirdə onların hər biri cinayət məsuliyyətinə cəlb olunacaqlar. Bu hüquqi mexanizm, bu hüquqi təminat olmayınca bütün bu tip şeylər gündəmdə olacaq. Özü də indi sensasiya doğuran məqam videogüntülərdir. Amma minlərlə səs qeydləri var. Minlərlə insanın yazdığı sənədlər var ki, onlar qeydiyyata salınmayıb. Hətta siz bu gün MTN-in varisi olan Dövlət Təhlükəsizlik Xidmətində onların qanuniləşdirilmiş əkslərini, sənədləşdirilmiş formalarını tapa bilməzsiniz. Çünki faktiki olaraq MTN rəhbərləri bu qurumu, onun bütün imkanlarını, texniki əməliyyat imkanlarını şəxsi maraqları, cinayətkar məqsədlər üçün istifadə ediblər. Faktiki olaraq bu insanlar quldurluqla məşğul olublar. Ona görə də burda çox sərt, ciddi təhqiqat aparılmalıdır. Bunların hər birinə yazılı şəkildə xəbərdarlıq olunmalıdır. Sübut olunan faktlar ortaya çıxdıqda bunlar cinayət məsuliyyətinə cəlb olunub, məhz həmin maddə ilə mühakimə olunmalıdır. Yalnız bu halda biz cəmiyyət üzərindən o xofu götürə bilərik.

İndi qayıdıram 2800 videogörüntüyə. Sizi əmin edirəm ki, bildiyim şeylərin çox cüzi hissəsini açıqlamışam. Bildiklərimdən ancaq 2800 rəqəmini açıqlamışam, amma bir həftədir gündəmdə müzakirə olunur. "Gündəmi dəyişir" deyənlərin özləri də bunu müzakirəyə çıxarırlar və hətta deyirlər ki, rəqəm 2800-dən daha çoxdur. Bilmirəm, onlar hansı mənbəyə istinad edirlər, yəqin ki, onların da öz mənbələri var. Amma nə qədər ki, bu məsələlər ölkədə təzyiq, təhdid predmeti olaraq qalmaqdadır, bunu aradan qaldırmağın yeganə yolu hüquqi mexanizmlərdir.



**"Kiminsə şübhələrini dağıtmaq üçün durub ortaya 2800 video qoyası deyiləm ki"**

***- Bunu edəcəkmi hakimiyyət?***

- Hakimiyyət durumu nəzərə alıb, özünü qorumağı zəruri hesab edirsə, bunu mütləq etməlidir. Bu, birinci addım olmalıdır. Videogörüntülərin əməliyyat və digər məqsədlərlə istifadəsi qanunla qadağan olunmalıdır.

***- Əməliyyat məqsədilə deyərkən nəyi nəzərdə tutursunuz?***

- Bu görüntüləri kiminsə qarşısına qoyub, onu şantaj etməyi. Bu, məqsədli fəaliyyət olub. İnsanların özəl görüntülərini çəkmək üçün onlar bir sıra hallarda özlərinin əlaqəsində olan qadın agentlərdən istifadə ediblər. Ümumilikdə təkcə vətəndaş cəmiyyəti fəallarına, yaxud dövlət nümayəndələrinə qarşı olunmayıb. Xarici diplomatlara qarşı da bundan istifadə olunub. Bu qalmaqallardan bəziləri müxtəlif formalarda mətbuata çıxıb, amma insanlar bunun incəliyinə varmayıblar ki, nə deməkdir? Bunlar hər yerə əl atıblar. Və burada sual odur ki, bu insanlar bunu öz təşəbbüsləri ilə ediblər, ya xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə? Əgər ikincidirsə, sizi əmin edirəm ki, bu, daha ciddi təhlükədir. Çünki xarici xüsusi xidmət orqanları o cür faktları, görüntüləri əldə etməklə Azərbaycan vətəndaşlarını çox asanlıqla şantaj yolu ilə əməkdaşlığa cəlb edib, öz məqsədləri üçün istifadə edə bilərlər. Ona görə də deyirəm ki, bu insanların törətdiyi dövləti cinayətlərin miqyası hələ bizə çatmır və çatmayacaq.

***- Videogörüntülərin olduğu baza daha çox ictimai sektoru, siyasi xadimləri, ya iş adamlarını əhatə edir? Üstünlük hansı kateqoriyadadır?***

- Məndə olan məlumata görə, əsasən böyük məbləğdə pulu, imkanı olan şəxsləri əhatə edir. Çünki bunlardan şantaj vasitəsi kimi istifadə edib, bir çox adamlardan xeyli pul alıblar. Məqsəd bu olub. MTN sistemindən xeyli adam vəzifəsindən çıxarılandan, bu nazirlik ləğv edildikdən sonra bəzi sahibkarların, iş adamlarının özləri bu barədə danışdılar. Onların da demək olar ki, heç biri təkzib olunmayıb.

***- Bu "əldəki bomba" hansı məqamda partlaya bilər? Belə bir ehtimal varmı ki, hansı situasiyada belə bir şey baş verə bilər?***

- İstənilən məqamda ola bilər. Bu, artıq əlində material olan insanların, qurumların, xüsusi xidmət orqanlarının, xarici xüsusi xidmət orqanlarının - harada olduğunu bilmirik - bizim üçün ən gözlənilməz məqamda, onların marağına uyğun olan şəkildə üzə çıxa bilər. Ona görə də indidən müxtəlif önləyici tədbirlər həyata keçirilməlidir. Təbii ki, internet dönəmində bunu etmək çox çətindir. Amma bunun Azərbaycanda birbaşa şantaj predmeti olmasının qarşısını indidən hüquqi mexanizmlərlə almaq lazımdır.

***- Rəylərin böyük əksəriyyəti belədir ki, bu, Eldar Mahmudovla aparılan sövdələşmənin, razılaşmanın nəticələrindən asılı olacaq...***

- Mənim gördüyüm budur ki, hazırda Eldar Mahmudov kimlərsə tərəfindən himayə olunur. Bildiyimə görə, indiki vaxta qədər də yetərincə effektiv olub. Eldar Mahmudovu himayə edən şəxslər müəyyən qərarlara, xüsusən də siyasi qərarlara təsiri olan şəxslərdir. Ona görə də burda məsələ dövlətin ali qanunverici orqanı səviyyəsində və dövlətin Milli Təhlükəsizlik Şurası səviyyəsində birdəfəlik həll olunmalıdır. Məsələ ilk baxışdan əhəmiyyətsiz görünə bilər, amma qətiyyən əhəmiyyətsiz deyil. Bayaq da dediyim kimi, bu məsələ Azərbaycanda müxtəlif sahələrdə təsir gücü olan insanların xarici xüsusi xidmət orqanlarının əlinə keçməsinə gətirib çıxara bilər. Azərbaycanda bunun vasitəsilə xarici xüsusi kəşfiyyatların böyük bir agentura şəbəkəsi yaradıla bilər. Bu isə artıq milli təhlükəsizliyə ciddi təhlükədir.

❑ **Sevinc TELMANQIZI**



# Öz toyuna pul yazdıran millət

**Zamin HACI**
zaminhaci@gmail.com

**Deyilənə görə, paytaxtın mərkəzini azərbaycanlılar üçün təzədən açıq elan ediblər, təbriklər. Uca millət, sevgili xalq, sevin. Belə günlər ələ düşməz. Bir də gələn il yayda oranı bağlayıb maşın ötüşdürəcəklər. Hökumətin dediyinə görə, tam 5 il belə olacaqmış. Guya Formula-1-in daha 5 il Bakıda olmasına razılaşmasaq, ölkə 100 milyon dollar cərimə edilərmiş. Gənclər və idman naziri belə deyibmiş. Ta bu yarışı niyə xalqın əvəzindən razılaşıb xalqın belinə şələyiblər, bunu soruşan yoxdur. Əslində xalq da Dərbənddən bazarlıq eləməyə gedib, heç xəbəri yoxdur onun əvəzindən hansı öhdəliklərə girirlər, hansı hoqqalardan çıxırlar. Əsas odur milli dəyərlərimizə sadiqik. Bəs necə, qədimdə yeddi gün yeddi gecə toy eləyərdik, indi də qoy beş il, beş yay Formula-1 qayıraq.**

Toy demişkən, bütün hallarda bu oyunun keçirilmə forması mənə çatmadı. Əsas da yarışın hündür divarlara bürünüb xalqdan gizlədilməsi. Kimlərsə bilet alıb baxıblar. Əcəb ediblər, ancaq xalq niyə öz dövlət büdcəsinin, öz pulunun hesabına qayırılan yarışa oğrun, pəncəsi üstdə uzanaraq, ağaca-zada çıxaraq baxmalıdır? Bunun məntiqini kim izah edə bilər? Əgər yarışın pulunu, sponsorluğunu hansısa özəl şirkət eləsə, başa düşərdik bilet satıb pul qazanmalıdır. İndiki halda isə yarış dövlət büdcəsi hesabınadır. Elə bil özünə toy edirsən, ancaq həmin toya baxmaq üçün şadlıq sarayına girəndə bilet də almalısan, masaların xərcindən əlavə.

Oyuncaq maşınlar təyyarə sürətiylə şütüyən şəhərdə millətin əlil arabasını gömrükdən keçirmək problemi varmış. Tural Əlisoy adlı vətəndaşımızın başına gələn milli faciəmizin simvoludur. Hökumət fiziki problemləri olanlara onsuz diqqət göstərmir, hərə başına çarəni özü qılır. Tural bəy də dostlarının köməyi ilə xaricdən bir elektron əlil arabası alıb. Araba gəlib gömrüyə çatanda bunun Azərbaycana girməsi üçün... 4 min manat gömrük rüsumu istəyiblər! Qanunla beləymiş. Təsəvvür edin, nə abırsız ərazidə yaşayırıq: əlilə dövlət qayğısı sıfırdır, əlil özü xaricdən araba tapıb gətirəndə də rüsum alırıq. Əgər bizdə belə qanunlar varsa heç sözüm yoxdur, sadəcə, deputatxanada sosial qanunlar qayırılmasına məsul Hadı və Bıdı müəllimlərə belə arabaya möhtac qalmağı arzu edirəm. İlahi, amin. Uzaqdan, yaxından bu yazını oxuyanlar, bir salavat zikr edin.

Bizim dövlətçilik siyasətində belə hətərən-pətərən mövzular hədsiz çoxdur. Misal üçün, iyunun 15-də Moskvada MDB üzvü ölkələrin müdafiə nazirləri toplanmışdı. Ora ruslar bizim Zakir müəllimi də erməni həmkarıyla birgə dəvət eləmişdilər. Başqa yol da yoxdur, biz hamımız bu mənasız MDB-nin üzvüyük. Ancaq mənə gülməli gələn budəfəki tema idi, çünki MDB üzvü olan ölkələrin... hərbi-kosmik müdafiəsinin vahid konsepsiyası müzakirə edilmişdir. Ermənistan Rusiyanın yaxından köməyi ilə Azərbaycan torpağını işğal altında saxlayır, indi isə Rusiya bizə kosmosdan gələcək təhlükələrdən müdafiə təklif edir. Sən də müdafiə nazirini göndərirsən, dövlət başçısının özünün etiraf elədiyi kimi, "iyirmi ildir davam edən mənasız danışıqların" növbəti raunduna qulaq asırsan. Bəlkə marsiançiklər Qarabağa hücum edəcəkdir, ərazi bütövlüyümüz təhlükə altına düşəcəkdir, nə biləsən? Yaxşı konsepsiyadır, mütləq qoşulmalıyıq.

Düzü, bizim özümüzün də göydə nəsə bir peykimiz olmalıydı, onun imkanlarından MDB hərbi-kosmik müdafiə konsepsiyası üçün yararlanmaq lazımdır. Əgər hansısa nazir o peyki çırpışdırıb satmayıbsa, çünki çoxdandır peykə təzə mahnılar qoşulmur, aşıqlar oxumur, bir qəpiklik xeyrini də görmürük. Bəlkə peykin marşrutunu da buluda-zada bürüyüblər ki, xalq onu görməsin? Ən uzun bayraq dirəyimizin başına qalxanda peyki görmək olurmuş - bunu indicə etibarlı qaynaqdan öyrəndim.

Azərbaycanı dünyada tanıdırıq, bir qədər özümüz də tanıyaq.

# Millət vəkili Ermənistana səfərə hazırlaşan Papaya məktub yazdı

## Elxan Süleymanov: "Sizi Dağlıq Qarabağda baş vermiş faciələrdən bəhs etməyə, Ermənistanın BMT və AŞ qətnamələrinə müvafiq olaraq, işğal edilmiş bütün Azərbaycan torpaqlarını geri qaytarması üçün çağırış etməyə səsləyirik"

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, millət vəkili Elxan Süleymanov Roma Papası Fransiskə məktub yazıb. E.Süleymanovun Papaya ünvanlandığı müraciətdə deyilir:**

**- Zati-müqəddəsləri!**

Bütün etiqadlardan olan xalqları barışdırmaq və gələcək nəsillər üçün daha yaxşı dünya təşviq etmək üçün göstərdiyiniz davamlı və təqdirəlayiq səylərinizi nəzərə alaraq, Ermənistana səfəriniz zamanı müzakirə edilə biləcək mümkün məsələlər, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ və digər qonşu rayonlarının qanunsuz işğalına bəraət qazandırmaq məqsədilə Ermənistan hakimiyyətinin göstərəcəyi çaşdırıcı səylərlə bağlı dərin narahatlığımızı ifadə edirik.

Əminik ki, zati-müqəddəsləri Azərbaycan xalqının əsrlər boyu sadiq qaldığı və dərin köklərə malik dini və etnik tolerantlıq ənənəsi, eləcə də burada xristianlar, yəhudilər və müsəlmanların dinc birgə yaşayışı barədə məlumatlıdır. Xatırlatmaq istərdik ki, zati-müqəddəsləri, xarici işlər naziri Covanni Layolo 2006-cı ildə Bakı səfərində belə bir bəyanat vermişdi: "Azərbaycanla Vatikan arasında dost əlaqələrin səviyyəsindən məmnunuq. Azərbaycan həqiqətən də dinlər və mədəniyyətlərin qovuşduğu bir yerdir. Buradakı tolerantlığı yüksək qiymətləndiririk. Azərbaycanın intensiv inkişafı bizi sevindirir. Vatikan Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlıdır və Bakı səfərimin məqsədi əlaqələrimizi daha da inkişaf etdirməyə dair fikir mübadiləsi aparmaqdır".

Azərbaycan həqiqətən də dünyəvi dövlətdir. Konstitusiyanın 48-ci maddəsinə əsasən, etiqad azadlığı, istənilən etiqadı seçmək və din barədə fikirlərini ifadə etmək azadlığı təmin edilir.

Ermənistan 20 ildən artıqdır ki, Azərbaycan ərazisinin 20%-ni qanunsuz olaraq işğal altında saxlayır və o vaxtdan etibarən BMT Ermənistanı öz qoşunlarını geri çəkməyə çağıran bir neçə qətnamə qəbul edib. Avropa Şurası Parlament Assambleyası da bu yaxında Ermənistanı işğal edilmiş Azərbaycan ərazilərini dərhal geri qaytarmağa çağıran 2085 (2016) saylı qətnamə qəbul edib.



Ötən onilliklər boyu ölkəmizi və regionumuzu bürümüş bu ədalətsizlik və dəhşətli qarışıqlığın davam etməsinə baxmayaraq, Azərbaycan xalqı tolerantlıq və bütün vətəndaşlar arasında hörmət və həmrəyliyə təşviq kimi mənəvi ənənəsinə sadiqdir. Ermənistan isə təəssüf ki, ölkələr və xalqlar arasında düşmənçilik və nifrət yaradaraq, olduqca qərəzli və görünməmiş formada yalnız bir dini təşviq etmək və ona şərait yaratmaq məqsədi güdür.

Bu arada Azərbaycan İslam dünyasında inklüziv birgə yaşayış və tolerantlıq modeli olduğunu sübut edib. Bu nailiyyətlərlə qürur duyur və ölkəmizdə xristian dininin tam azadlığını daha da gücləndirmək arzumuzu ifadə edirik.

Şübhəsiz, zati-müqəddəsləri bir çox Azərbaycan vətəndaşının Ermənistan təcavüzkarlarının törətdiyi qanunsuz işğalın qurbanına çevrilməsi və bu faciənin hələ də davam etməsi barədə geniş məlumata malikdir. Bütün bunları nəzərə alaraq, zati-müqəddəslərini öz ilahi və mənəvi öhdəliyinə sadiq qalmağa və İrəvanda Dağlıq Qarabağda baş vermiş faciələrdən bəhs etməyə, o cümlədən Ermənistan hakimiyyətinə beynəlxalq ictimaiyyətin gəldiyi nəticələrə hörmət etməsi, xüsusilə BMT və AŞ qətnamələrinə müvafiq olaraq, işğal edilmiş bütün Azərbaycan torpaqlarını geri qaytarması üçün çağırış etməyə səsləyirik.

Dövlətləri və xalqları barışdırmağa kömək edən vasitəçi kimi, zati-müqəddəsləri ilə əməkdaşlıq istəyimizi və ümidimizi ifadə edirik. Bu səbəbdən zati-müqəddəslərindən birtərəfli mövqe tutmamasını xahiş edirik, çünki bu, onun xristian və müsəlman dövləti arasındakı münaqişədə Ermənistan tərəfinin çaşdırıcı və beynəlxalq qanunsuz fikirlərinə əməl etməsi kimi şərh oluna bilər.

Bu səbəbdən zati-müqəddəslərini qondarma "erməni soyqırımı" abidəsini ziyarət etmək qərarını ləğv etməyə və bütövlükdə bəşəriyyətin rifahı naminə üzərinizə qoyulmuş mənəvi öhdəliyə sadiq qalmağa çağırırıq. Eyni zamanda zati-müqəddəslərini Ermənistan hökumətinin Dağlıq Qarabağın qanunsuz işğalına son qoyması və 1992-ci ildə Xocalı şəhərində törətdiyi soyqırım cinayətlərinə görə məsuliyyəti öz üzərinə götürməsi üçün çağırış etməyə səsləyirik.

Zati-müqəddəsləri ilə birlikdə tolerantlıq nümunəsini davam etdirmək arzusu və dinindən, yaxud etnik mənsubluğundan asılı olmayaraq, bütün xalqlar üçün daha yaxşı və dinc gələcək ümidi ilə Elxan Süleymanov.

Qeyd edək ki, Papa Ermənistana iyunun 24-də 3 günlük səfərə gələcək.

# "Məhbusların azad edilməsi Azərbaycan hökumətinin əməkdaşlığa açıq olduğunu göstərir"

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası iyunun 20-də öz işinə başlayıb.**

Sessiyanın açılışında çıxış edən qurumun sədri Pedro Aqramunt Avropa Şurasına üzv ölkələrdəki ümumu vəziyyət haqqında danışarkən Azərbaycanda jurnalist Xədicə İsmayılovanın həbsdən azad edilməsini alqışladığını bildirib.

APA-nın Avropa müxbiri xəbər verir ki, P. Aqramunt bu il ərzində Azərbaycanda bir çox siyasi məhbusun azad edildiyini də vurğulayıb: "Bu, çox yaxşı təşəbbüsdür və Azərbaycan hökumətinin əməkdaşlığa açıq olduğunu göstərir. İnsan hüquqları, demokratiya və hüquqi dövlət sahəsində üzərinə düşən beynəlxalq öhdəliklərini yerinə yetirməsi üçün biz Azərbaycan hökuməti ilə siyasi və konstruktiv dialoqu davam etdiririk".


Pedro Aqramunt

**O, Azərbaycan da daxil olmaqla, yanvar ayından bəri bir neçə ölkəyə səfər etdiyini bildirib:** "Mənim gördüyüm odur ki, bütün bu ölkələrdə Avropa Şurasının rolu çox güclüdür və bu ölkələr də bizim təşkilatla əməkdaşlığı davam etdirmək istəyindədir".

Sessiyasının birinci iş günündə ukraynalı parlamentar Nadejda Savçenko qurumun plenar iclasında çıxış edib.

AŞ PA üzvü olan xanım Savçenko Rusiyada həbsdən azad edildikdən sonra ilk dəfə AŞ PA-nın toplantısına qatılıb və müstəsna hal kimi 2 dəqiqəlik nitq söyləyib.N.Savçenko azadlığa çıxması üçün ona yardım etmiş AŞ PA üzvlərinə təşəkkürünü bildirib.

**N.Savçenko Rusiyada həbsdə saxlanılan digər ukraynalıların da azad edilməsi üçün AŞ PA-nı Rusiyaya təzyiq göstərməyə çağırıb:** "Rusiya məni 22 il həbsdə saxlamaq istəyirdi, amma biz bunu istəmədik və əlimizdən gələn hər şeyi etdik. Mən sizin aranızda olmağıma çox şadam".

Ukraynalı parlamentar, eyni zamanda Rusiyanın yenidən AŞ PA-da təmsil olunmasına qarşı çıxaraq bu dövləti assambleyanın digər üzvlərinin hüquqlarını pozmaqda ittiham edib. O, sonda heç kəsə Rusiya kimi qonşu arzu etmədiyini və Rusiya ilə qonşu olan ölkələrin bundan əziyyət çəkdiklərini söyləyib.

# Prezidentlərin növbəti görüşü sonuncu olacaq, əgər...

**Dünən - iyunun 20-də Rusiyanın Sank-Peterburq şəhərində prezidentlərin Qarabağ sammiti keçirilib. Rusiya lideri Vladimir Putinin təşəbbüsü ilə həmin gün onunla Azərbaycan və Ermənistan prezidentləri arasında əvvəlcə ikitərəfli, sonra isə üçtərəfli formatda müzakirələr aparılıb.**

Rusiyanın şimal paytaxtında Qarabağa dair keçirilən budəfəki, sayca 5-ci olan görüş əhəmiyyətinə görə əvvəlkilərdən xeyli dərəcədə fərqlənirdi. Bu da münaqişə ətrafında aprel döyüşlərinin yekunundan qaynaqlanan kritik durumla, daha doğrusu, Azərbaycanın xeyrinə dəyişmiş yeni status-kvo ilə bağlı idi.

Məsələ ondadır ki, bundan qabaqkı Vyana danışıqlarının ciddi nəticə olmadan yekunlaşması konflikt zonasındakı situasiyaya əlavə mənfi çalarlar qatıb, müharibə risklərini daha da artırıb. Görüş ərəfəsi həmçinin Azərbaycanın genişmiqyaslı hərbi təlimlərə başlaması Qarabağa dair növbəti danışıqların önəmini artıran və sülh anlaşmasını tezləşdirməyi zəruri edən xəbərdarlıq siqnalları idi.

***

Bu üzdən Peterburq zirvəsi ilə bağlı proqnoz və təxminlər həm ümidverici, həm də diametral zidd şəkildə bədbin olmaqla, daha çox ehtiyatlı nikbinlik xarakteri daşıyırdı. Hətta belə fikirlər səslənməkdə idi ki, prezidentlərin Peterburqdakı 5-ci görüşü sonuncu da ola bilər, çünki 5 günlük müharibədə böyük qələbəni dadan Azərbaycan xalqının işğalçıya qarşı dözüm limit artıq bitib. Bu və digər səbəblərdən Azərbaycanın həm rəsmi, həm də ictimai səviyyədə Rusiya və onun liderindən konkret gözləntisi bu idi ki, Moskva artıq çoxdan "dondurulmuş münaqişə" olmaqdan çıxan problemin həllinə öz real töhfəsini, nəhayət, verəcək; əks halda, müharibə qaçılmaz olacaq.

Əksər siyasi şərhçilərə görə də Sankt-Peterburq sammiti Qarabağ məsələsində bir əsas suala aydınlıq gətirəcəyi ilə önəm kəsb edirdi: bundan sonra problemin həlli hansı səmtdə gedəcək - hərb, yoxsa sülh *(mərhələli həll)* variantı üstünlük qazanacaq? Qısası, məsələdə hamı tərəfindən açar rolu etiraf edilən Rusiya müharibənin tətiyinin çəkilməsinə əngəlləyəcək irəliləyişə kömək edəcəkmi, Ermənistanı işğal elədiyi ərazilərdən çıxmağa nəhayət, inandıracaqmı?

***

**"Prezident İlham Əliyev və Serj Sərkisyan arasında baş tutacaq görüş tərəflər arasında etibarın yaranmasına kömək edəcək və Qarabağ münaqişəsi üzrə çərçivə sazişi üzərində işləməyə şərait yaradacaq".** Bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri, Ceyms Uorlik görüş günü özünün twitter mikrobloqunda yazıb.

Nüfuzlu "Kommersant" nəşri də eyni gündə yazırdı ki, Rusiya təkcə vəziyyəti nəzarətdə saxlamayacaq, həm də Qarabağ üzrə hansısa çərçivə razılaşması istiqamətində addımlar atılmasına çalışacaq: **"Bu razılaşma özündə atəşkəs rejimini möhkəmləndirmək və nizamasalmanın "Yol xəritəsi"ni birləşdirir. Hesab etmək olar ki, Sankt- Peterburqda Dağlıq Qarabağ üzrə böyük diplomatik seans keçiriləcək"(publika.az).**




# Peterburqda kritik Qarabağ müzakirələri - barışa, yoxsa savaşa doğru...

## Rusiyanın şimal paytaxtındakı danışıqlar hərb, yoxsa sülh dilemmasına aydınlıq gətirmədi; **İlham Əliyev Putinə:** "Qarabağ məsələsində status-kvo qəbuledilməzdir, erməni işğalçı qüvvələri bölgədən çıxmalıdır!.."; prezidentlər birgə bəyanat verdilər; **Elmar Məmmədyarov:** "Azərbaycan tərəfi Peterburq görüşünün nəticələrini müsbət qiymətləndirir"

Nəşr hesab edir ki, Peterburq görüşü Rusiyanın münaqişəni nizama salmaq üçün ikinci ən böyük cəhdi olacaq: **"5 il əvvəl - 2011-ci ilin iyun ayında İlham Əliyev və Serj Sərkisyan ovaxtkı prezident Dmitri Medvedyevin vasitəçiliyi ilə Kazanda görüşdülər. Kazanda mümkün güzəştlər ətrafında razılığa gəlinsə də, bu istiqamətdə addımlar atılmadı. 5 il sonra nəzərə çarpan dəyişikliklər hiss olunur. Status-kvo olduqca kövrəkdir və regionda tərəflərin hərbi ritorikası artıb".** "Kommersant" Azərbaycan ordusunun genişmiqyaslı hərbi təlimlərə başlamasına da toxunaraq qeyd edib ki, rəsmi Bakı bununla reallığı nümayiş etdirmək istəyir.

Öz növbəsində tanınmış rusiyalı **politoloq Sergey Markedonov** qəzetə açıqlamasında münaqişə ilə bağlı sürətli irəliləyişin mümkünsüz olduğunu söyləyib: **"Münaqişənin dondurulmuş vəziyyətdə qalması, beləliklə, Ermənistan və Azərbaycan arasında seçim etməmək Rusiyanın maraqlarına uyğundur. Bu baxımdan, ciddi irəliləyiş gözləmirəm".** Yeri gəlmişkən, belə mövqeni bölüşən xarici və yerli analitiklər heç də az deyildi...

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə isə Peterburq görüşündə əsas hədəf "Dağlıq Qarabağda hərbi əməliyyatların bərpasından sığortalanmaq" olacaq. Görüş öncəsi o, "danışıqların çətin olacağını" da söyləyib. Sankt-Peterburqdakı Qarabağ sammiti münaqişə ətrafında belə bir ziddiyyətli ab-hava, kövrək ümidlər və təxminlər fonuna təsadüf edirdi...

***

Dünən Rusiyanın ikinci paytaxtında əvvəlcə Rusiya və Ermənistan prezidentləri Konstantinovski sarayında bir araya gəliblər. Müzakirələrim açıq hissəsində Serj Sərkisyan Qarabağ məsələsində diqqət və səylərinə görə Vladimir Putinə minnətdarlıq edib. **"Qarabağa dair bizim mövqeyimiz hamıya məlumdur. Biz istəyirik ki, problem müstəsna olaraq sülh yolu ilə həllini tapsın. Əfsus ki, yalnız bir tərəfin istəyi ilə belə konfliktlər yoluna qoyulmur. Gözəl olardı ki, biz öncə əldə olunan anlaşmalar əsasında bu gün Qarabağa gedə biləydik"** - Sərkisyan deyib. Putin isə ona bu yöndə səylərin davam etdiriləcəyini vəd edib.

Daha sonra Rusiya lideri eyni ünvanda azərbaycanlı həmkarı ilə görüşüb. İlham Əliyev görüşdə Qarabağ məsələsində status-kvonun artıq qəbuledilməz olduğunu və erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu bildirib. **"Ümid var ki, Qarabağ danışıqlarına konstruktiv dinamika vermək mümkün olacaq"** - Azərbaycanın dövlət başçısı vurğulayıb.

Maraqlıdır ki, Əliyev-Putin görüşü zamanı iqtisadi məsələlər də müzakirə edilib (APA). **"Bu gün müzakirə edəcəyimiz problem bəllidir. Bu, bizə çoxdan qalan Qarabağ problemidir. Lakin mən görüşümüzdən istifadə edib ikitərəfli münasibətlərimiz haqqında danışmaq istəyirəm. Bizə məlum olan səbəblərdən təəssüf ki, ticarət dövriyyəmizin aşağı düşməsini müşahidə edirik"**, - deyə V.Putin qeyd edib.

Rusiya prezidenti bildirib ki, hər iki lider bunun səbəbini bilir: **"Ticarət dövriyyəsinin aşağı düşməsinə səbəb enerji daşıyıcılarının qiymətinin ucuzlaşması və eləcə də milli valyutaların məzənnəsi arasındakı fərqdir".** Prezidentlər ikitərəfli əməkdaşlığın humanitar perspektivlərini də müzakirə ediblər: "Bilirik ki, Azərbaycanda rus dilinin öyrənilməsinə necə həssas yanaşılır. Bizim ali məktəblərin filiallarının necə uğurla fəaliyyət göstərdiyini bilirik. Bütün bunları yüksək qiymətləndiririk. Ümid edirəm ki, belə işlər bundan sonra da bütün istiqamətlərdə davam etdiriləcək".

İlham Əliyev rusiyalı həmkarını Peterburq İqtisadi Forumunun uğurlu keçməsi münasibətilə təbrik edib və Azərbaycanın bu forumda fəal iştirak etdiyini söyləyib. Rusiya-Azərbaycan ticarət dövriyyəsindən zəifləməsindən danışan ölkə başçısı bunun müvəqqəti xarakter daşıdığını qeyd edib: **"Biz ticarət dövriyyəsinin bərpa olunmasının yollarını və möhkəmləndirilməsini axtarırıq. Hesab edirəm ki, bu, baş verəcək. Bundan başqa bizim enerji sahəsində qarşılıqlı aktiv fəaliyyətimiz var. Nəqliyyat əməkdaşlığında da yaxşı perspektivlərimiz var".** İ.Əliyev Vladimir Putini Azərbaycanda görmək arzusunda olduğunu da diqqətə çatdırıb.

Bundan bir qədər sonra isə Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı üçtərəfli görüşü başlayıb. Görüşdə Rusiya xarici işlər naziri Sergey Lavrov və Minsk Qrupunun həmsədrləri də iştirak ediblər.

Görüşdən sonra prezidentlərin birgə bəyanatı yayılıdı.

**"Rusiya, Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müntəzəm olaraq üçtərəfli görüşləri davam etdirmək barədə razılığa gəliblər".**

APA-nın Rusiya bürosunun məlumatına görə, bu barədə prezidentlərin Sankt-Peterburq sammitinin yekunları ilə bağlı qəbul olunan birgə bəyanatında bildirilib.

**"Prezidentlər Dağlıq Qarabağ problemi ilə bağlı müntəzəm əlaqələrinin əhəmiyyətli olduğunu, ATƏT-in Minsk Qrupunun işinə tamamlama olaraq bu formatda əlaqələrini davam etdirmək barədə razılığa gəliblər. Prezidentlər Qarabağ münaqişəsinin nizamlanmasında inkişafına şərait yaratmağa icazə verən bir sıra məsələlərdə qarşılıqlı anlaşmanın əldə olunduğunu ifadə ediblər"**, - deyə bəyanatda qeyd olunub.

Birgə bəyanatda həmsədrlərin prezidentlərin görüşünün yekun hissəsinə qatıldıqları vurğulanıb.

**"Görüş konstruktiv şəkildə keçirilib. Azərbaycan tərəfi görüşün nəticələrini müsbət qiymətləndirir".**

Bunu isə APA-ya açıqlamasında Sankt-Peterburqda Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə keçirilmiş Ermənistan və Azərbaycan prezidentlərinin görüşü ilə bağlı Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov bildirib. **"İnanırıq ki, görüş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesində tezliklə irəliləyişə nail olmaq üçün imkanlar yaradacaq"**, - deyə o vurğulayıb.

***

Əlavə edək ki, qapalı görüşlərdə Qarabağ mövzusunda müzakirə edilən məsələlərin detalları barədə ətraflı bilgi verilmir. Bir şey dəqiqdir ki, bu danışıqlar "barışa, yoxsa savaşa davam" dilemmasına aydınlıq gətirmədi. Əgər Ermənistan yenə də öz işğalçılıq siyasətinə Rusiyanın dəstəyini əldə edəcəksə, o zamana Peterburq görüşü, prezidentlərin sonuncu görüşü də ola bilər.

Yada salaq ki, görüşdən cəmi iki gün qabaq İlham Əliyev QMİ-dəki iftar süfrəsindəki çıxışı zamanı bunları demişdi: **"Aprel döyüşləri Ermənistan rəhbərliyinə yaxşı dərs, vasitəçilərə, dünya ictimaiyyətinə isə siqnal oldu. Əgər kimsə fikirləşir ki, biz növbəti 20 il də mənasız danışıqlar aparacağıq, səhv edir. Biz mənasız danışıqlar aparmaq fikrində deyilik. İmitasiya naminə danışıqlar da aparmayacağıq".**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016

**Sabiq baş nazir Surət Hüseynovun 2004-cü il martın 19-da "Xural"qəzetinin baş redaktoru Əvəz Zeynallıya verdiyi müsahibə yenidən gündəmə gəlib. Artıq demək olar ki, hər il iyun ayında 1993-cü ilin iyun hadisələrinin yenidən gündəmə gətirilməsi ənənəvi hal alıb. Bu məqsədlə sosial şəbəkələrdə paylaşılan bəhs etdiyimiz müsahibənin başqa bir tərəfi diqqət çəkib.**

# İsgəndər Həmidov Surət Hüseynova nə deyibmiş?

## Sabiq nazir: "Bu, ağ yalandır"

**Belə ki, ümumilikdə 1993-cü ilin iyun hadisələrindən söhbət getdiyi müsahibədə S.Hüseynov milli azadlıq hərəkatının liderlərindən biri, sabiq daxili işlər naziri İsgəndər Həmidov və keçmiş müdafiə naziri Rəhim Qazıyev barəsində aşağıdakıları bildirib:** "Rahim Qazıyevlə həmin İsgəndər Həmidov mənim yanımdan çıxanda, İsgəndər gördü ki, camaat onlara pis baxır, kişi kimi dedi ki, ay camaat, bizə niyə belə baxırsınız, biz çıxıb orada artistlik edirik ki, o rayonu belə aldıq, bu kəndi belə azad etdik, alan oğlan isə budur, biz ancaq artistlik edib, bunu öz adımıza çıxırıq. İsgəndər bu sözü 500-600 adamın içində deyib. Mən də orada demişəm ki, a kişi, mənə ad lazım deyil, qoy ad sizin, ancaq torpaq millətin olsun".

**Məsələ ilə bağlı İsgəndər Həmidovun da münasibətini öyrəndik. İ.Həmidov "Yeni Müsavat"a bildirdi ki, bu, ağ yalandır:** "Belə bir söhbət olmayıb. Bu tamamilə yalandır. Surət hansı torpağı alıb ki? Müharibədə hamımız iştirak etmişik. Bəs yaxşı, Surət Hüseynov harada torpaq alıb? Əksinə, Tərtərdə, Goranboyda müvəffəqiyyətlərimiz olub ki, orada da bu məsələlərlə heç Surət Hüseynovun əlaqəsi də olmayıb. İsgəndər Həmidov elə söz deməyib. Olmayan şeyi necə demək olar ki, başa düşmürəm. Mən hər zaman demişəm ki, Qarabağ müharibəsində hər kəsin özünün əməyi var. Ancaq bir daha bildirirəm ki, belə bir ifadə işlətməmişəm. Həmin zamanlar mən heç Surəti görməmişəm. Onu həmin vaxtlar televiziya vasitəsilə izləyirdim. Heç olmasa yalan danışanda bunu məntiqlə danışmaq lazımdır".



Surət Hüseynov



İsgəndər Həmidov

**Məsələ ilə bağlı moderator.az saytına Rəhim Qazıyev də fikirlərini bildirib. O söyləyib ki, İsgəndər Həmidov elə bir ifadə işlətməyib:** "Ümumiyyətlə, artistliklə heç nə almaq olmazdı, artistliklə ancaq camaatı güldürmək, dəmlətmək olar. İsgəndər Həmidov heç vaxt elə ifadə işlətməzdi. Biz müharibə aparmışıq, müharibəni nə mən təkbaşına aparmamışam, nə də başqa birisi. Müharibədə hər kəsin öz xidməti olub. Çox təəssüf edirəm ki, Surət kimi adam müsahibəsində belə bir fikir səsləndirib. Əgər həqiqətən belə söz olubsa, Surət gəlsin üz-üzə dayanaq, həmin 500-600 nəfəri yığıb sübut eləsin. Mən bir daha deyirəm ki, İsgəndər Həmidov mənim yanımda elə söz deməyib. İsgəndər Həmidovun ağzından belə söz çıxdığının şahidi olmamışam. Ümumiyyətlə, İsgəndərin elə söz deməsinə belə heç vaxt inanmıram. Əgər doğrudan da Surət Hüseynovun dediyi kimi biz artistlik edirdik, torpaqları Surət alırdısa, mənim ona bir sualım var. Surət Hüseynov baş nazir olduğu bir il üç ay ərzində bizim o dövrdə özünün də iştirakı ilə aldığımız torpaqları niyə düşmənə verdi? Yaxşı, biz artistlik edirdik, ancaq o kişi torpaq alırdı, bu çox gözəl, bəs niyə yol verdi ki, torpaqlar işğal olunsun? Həmin vaxt Heydər Əliyev rəsmi elan etmişdi ki, bütün hərbi strukturları və Qarabağ məsələsini Surət Hüseynova həvalə etmişəm. Surətin baş nazirliyi dövründə o rayonların hamısı verildi və Azərbaycan silahlı qüvvələrinin qabaqcıl hissələri Xankəndinin 40-50 km-də dayandı. Surət Hüseynov bu suala cavab versə yaxşı olar".

❑ Əli RAİS

# Ülvi Həkimovdan AXCP-nin parçalanması barədə etiraf

## "AXCP-ni parçaladıq" - KXCP sədrindən də 16 il öncənin hadisələri ilə bağlı etiraflar gəldi

## Mirmahmud Mirəlioğlu: "Hər kəsin səhvi ola bilər"

**Vaxtilə AXC-nin (1995-dən AXCP) funksionerlərindən olan, mərhum prezident Əbülfəz Elçibəyin ən yaxın silahdaşlarından sayılan Ülvi Həkimov facebook səhifəsində etiraflarla dolu bir status paylaşıb. O, 2000-ci illərdə Elçibəyin rəhbərlik etdiyi partiyanı parçaladıqlarına görə vicdan əzabı çəkdiyini bildirib.**

Ü.Həkimovun həmin statusunu təqdim edirik: "1 iyul 2000-ci ildə AXCP-nin Elçibəyin iştirakı ilə keçirilən sonuncu Məclisindən sonra Əbülfəz bəylə görüşüm oldu. Elçibəy xəstəliyi ilə bağlı Türkiyəyə yola düşəcəkdi. Heç nə diqqətindən yayınmırdı. Oğul nəvəsinin doğumu ilə bağlı onu təbrik etdim. Bəy də məni oğlumun anadan olması münasibətilə təbrik etdi və qayıdandan sonra qeyd edəcəyimizi bildirdi. Ancaq bu son görüşdə mənə dediyi sözlər indiyə qədər yadımdan çıxmır və günahkar kimi vicdan əzabı, xəcalət çəkirəm. Elçibəy: "AXCP-dən çox narahatam, iç dedi-qodularla bizim başımızı qatıb parçalamaq istəyirlər... buna yol verməyin!"

Biz də optimist çıxışlar edərək bəyimizə "arxayın ol, hər şey yaxşı olacaq... imkan verməyəcəyik" deyib yalançı vədlər verdik. Və biz o kişinin sonuncu istəyinə xəyanət etmiş olduq. Bizə əmanət qoyduğu AXCP-ni parçaladıq. Bəlkə illər sonra Rəsulzadə-Elçibəy ideyaları iqtidar olsa, cəbhəçilər hakimiyyətə gəlsə, Tanrı bizi bağışlayar və Elçibəyin də ruhu şad olar".

Qeyd edək ki, Ü.Həkimovun xatırlatdığı həmin hadisə 2000-ci ildə Elçibəyin vəfat etməsindən sonra baş vermiş, onun rəhbərlik etdiyi partiya iki hissəyə ayrılmışdı. AXCP Əli Kərimlinin rəhbərlik etdiyi AXCP (islahatçılar), Mirmahmud Mirəlioğlunun sədr olduğu KXCP (klassiklər) qanadlarına ayrılmışdı. Həmin vaxtdan indiyə qədər Elçibəyin rəhbərlik etdiyi zamanlarda vahid şəkildə fəaliyyət göstərən partiya müxtəlif adlarda bir neçə qoldan ibarətdir. Artıq Elçibəy AXCP-sinin içərisindən çıxan şəxslərin yaratdıqları siyasi qurumların bəzən say-hesabını itiririk.



Ülvi Həkimov

**Ü.Həkimovun statusunun bir ucunun toxunduğu KXCP sədri Mirmahmud Mirəlioğlu səslənən fikirlərə belə münasibət sərgilədi:** "Hazırda Azərbaycanda əsas müzakirə mövzusu Peterburqda keçirilən Azərbaycan-Ermənistan prezidentləri arasındakı görüşdür. Amma biz heç bir mətbuat orqanına deyə bilmərik ki, planlaşdırmada nələr edin. Jurnalistin suallarına cavab vermək də borcumuzdur. Bu məsələ bu gün aktuallıq kəsb etmir. Çünki o dövrdən artıq 16 il keçir. Ülvi bəyin özü bu məsələlərə aydınlıq gətirib və bu onun şəxsi fikirləridir. O cümlədən əsaslı fikirlərdir. Xalq Cəbhəsi məsələsinə gəlincə, Elçibəyin sağlığında özünün iştirakı ilə partiyanın 1998-ci il yanvarın 30-31-də keçirilən qurultayında məsələlər hər kəsə gün kimi aydın idi. Hətta qurultaya gəlmiş şəxslər gözləyirdilər ki, Xalq Cəbhəsi bu qurultaydan necə çıxacaq. Bəyin sağlığında Kələkidə olduğu 4 il 4 ay ərzində partiya daxilində strukturlaşmış "Yurd" təşkilatı AXC-də idarətməni ələ almışdı. Birinci müavinlik təyinatından sonra məsələlər daha da irəliyə doğru getmişdi. Elçibəyin bu məsələ ilə bağlı gördükləri, dedikləri ortada idi. Elçibəy Kələkidə olarkən sərəncam vermişdi ki, partiyadakı fəaliyyət, maliyyə ilə bağlı hesabatlar olsun. Bütün bunlar "Yurd həqiqətləri" kitabında var. Orada komissiya tərəfindən toplanmış faktların 33%-i mövcuddur. Bunu oxuyan hər kəs həqiqətlərin şahidi olar. Bəy dünyasını dəyişəndən sonra məsələ tamam başqa cür idi. AXC-nin AXCP-yə çevrilməsi zamanında AXC-yə yaxın təşkilatların əksəriyyəti 1995-ci il qurultayında çalışırdılar ki, öz paylarını aparsınlar. Partiyalaşma ilə razılaşmayanlar, hərəkatın qalmasını istəyənlər getməli idilər, qalanların isə partiyada qalmaları nəzərdə tutulurdu. Bəzi məsələlər olur ki, onların qarşısını almaq çox çətin olur. Parçalanmanın qarşısını almaq olardı. Amma nə ilə? Qurultayda qəbul etdiyimiz qərarı pozmaqla, özünün verdiyi bəyanatdan imtina etməklə, parlamentə getməyəcəm deyib getməklə? Bunlar olmasa, əlbəttə, qarşısını almaq olardı, razılığa gəlmək mümkün idi, hətta partiyanın möhürünü də bundan sonra ola bilərdik. Amma bunların heç birini etmədik. Əgər 2000-ci ildə parlamentə getsəydim, mandatdan imtina etməsəydim, partiyanın möhürü, adı, bütövlükdə özü bizdə qalası idi. Bunu öncədən demiş, mandatdan imtina etmişdim. Həmin vaxt müsavatçılar, VHP-çilər, "yurd"çular da parlamentdən imtina etmişdilər. Milli Məclis bütövlükdə müxalifətsiz qalmışdı. Sonradan onların hamısı parlamentə getməli oldular. Bizim isə itkimiz partiyamızın adı oldu. Mahiyyət etibarı ilə təşkilatın özü bugünkü KXCP-də qaldı. O vaxtlar Ədliyyə Nazirliyi qərar verdi, 9 günlük AXCP də oldu. Sonradan ad qaytarıldı. Hazırda iki AXCP var. Onlar aparılan siyasətin nəticəsidir. Onun birinin adı "Yurd", digərinin adı QHT-dir. Amma hər kəs bilir ki, əsl AXCP kimdir. Kimlər Elçibəyin əsl davamçılarıdır, bu gün onlar doğru yoldadırlar. Ülvi bəyə təşəkkür edirəm ki, bu yazısı ilə məsələni gündəmə gətirdi, mən də danışdım. Hər kəsin səhvi ola bilər. AXC, AXCP, Elçibəy məsələsində bizim zərrə qədər Allah qarşısında, təşkilatın üzvləri yanında, Elçibəyin ruhu qarşısında səhvimiz yoxdur".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 135 (6456) 21 iyun 2016



# Azərbaycan ordusunun təlimləri düşməni təşvişə saldı

## Ağdərədə kənd salan işğalçı isə sülh yolu ilə torpaqları azad etməyəcəyini nümayiş etdirir; status-kvonu saxlamaq istəyən Rusiya Qarabağın açarını özündə saxlamaqda qərarlıdır; **ekspert:** "Putini münaqişənin həlli yox, atəşkəsin ömrünü uzatmaq düşündürür"

**İyunun 20-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən görüş ərəfəsində Azərbaycan-Ermənistan cəbhəsində nisbi sakitlik müşahidə olunsa da, ümumi vəziyyət gözlənilməz və arzuolunmaz hadisələrin hər an baş verə biləcəyini deməyə imkan verir.**




Təsəvvür edin ki, Azərbaycan işğal altındakı ərazilərin azad olunması barədə prinsipial mövqeyini bəyan etmək şərtilə danışıqların növbəti raunduna razılaşdığı halda, Ermənistan Qarabağ ərazisində süni məskunlaşmanı davam etdirir. Hansı ki, aprel döyüşlərdən sonra bəlli oldu ki, işğal altında yaşayan azsaylı əhali belə bir durumdan canını qurtarmaq üçün yollar arayır və qaçmağa meyllidir. Ancaq silah gücünə Qarabağda saxlanılan mülki əhalinin sayını artırmaq istəyən işğalçı ölkə Ağdərədə yeni kənd saldığı barədə xəbərləri dövriyyəyə buraxmaqla bir az da ajiotajı səngitməyə, üstəlik, Azərbaycana qarşı güc nümayiş etdirməyə çalışır. Modern.az xəbər verir ki, mərkəzi Livanda yerləşən Erməni Kilikiya kilsəsinin maliyyə dəstəyi ilə Dağlıq Qarabağda yeni yaşayış məntəqəsi inşa olunur. Belə ki, işğal altındakı keçmiş Ağdərə rayonu ərazisində, Sırxavənd və Kiçan kəndləri arasındakı geniş sahədə inşa olunan yeni yaşayış məntəqəsi Yeni Kilikiya adlanır. Erməni kilsəsinin maliyyəsi ilə inşa olunan kəndin ilk 10 evi artıq istifadəyə verilib, daha 20 evdə isə son tamamlama işləri aparılır. Düşmənin bu davranışı ondan xəbər verir ki, Ermənistan torpaqları Azərbaycana qaytarmaq niyyətində deyil və bu, hərbi əməliyyatları zəruri edir.

Elə Azərbaycan ordusunun Sankt-Peterburq görüşünün keçirildiyi gün genişmiqyaslı hərbi təlimlərə başlaması da işğalçıya və onun havadarlarına mesaj məqsədi daşıyır. Təlimlərin keçirilmə ərazisi olaraq cəbhəboyu zonada və Naxçıvan Muxtar Respublikasında yerləşən poliqonlar, eləcə də Xəzər dənizinin Azərbaycan sektoru müəyyən edilib. Artıq bu təlimlər düşməni ciddi şəkildə narahat edib. **Erməni politoloq Ruben Mehrabyan** Azərbaycan və Rusiyanın Vyana razılaşmalarından imtina etmək istədiklərini söyləyib. **"Qarabağ münaqişəsi bölgəsində Azərbaycan Silahlı Qüvvələrinin təlimləri həm Ermənistana, həm də ATƏT-in həmsədrlərinə mesajdır"**, - deyə o bilidirib. **"Bu mesaj təkcə Azərbaycandan deyil, həm də Rusiyadan gəlib"**, - deyə davam edən Mehrabyan Rusiyanın Azərbaycana satdığı T-90 tankları xatırladır. Ermənistan müdafiə nazirinin mətbuat katibi Artsrun Ovanisyan isə Azərbaycan ordusunun Naxçıvanda keçirdiyi hərbi təlimlərlə bağlı bəyanat yayıb.

Musavat.com erməni mətbuatına istinadən bildirir ki, ermənilərin fikrincə, Azərbaycan ordusunun hərbi təlimləri barədə qabaqcadan onlara xəbər verilməli imiş. Belə ki, ermənilərin iddiasına görə, ATƏT-in 2011-ci il Vyana sənədlərinə əsasən təlimlərdə 9000-dən çox şəxsi heyətin, 250 döyüş tankının, 250 özüyeriyən artilleriya qurğusunun və reaktiv sistemlərin iştirak etdiyi halda iştirakçılar məlumatlandırılmalıdır. Ermənilər Azərbaycanın iştirakçı tərəfləri belə bir informasiya ilə təchiz etmədiyini bildirib.

Düşmən həm də ondan ehtiyatlanır ki, Azərbaycanla Türkiyə arasında ikitərəfli hərbi əməkdaşlıq planına əsasən iyunun 20-dən "İŞIK-2016" beynəlxalq axtarış-xilasetmə təlimləri başlayıb, bu da işğalçının rahatlığını pozan növbəti addımdır. Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd Mi-17 döyüş-nəqliyyat və 3 ədəd Mi-35 döyüş helikopteri müştərək təlimlərdə iştirak etmək məqsədilə Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazaya gəlib. Təlimlər iyunun 30-dək davam edəcək. Təbii ki, Azərbaycan öz ərazilərini işğaldan azad etmək üçün ordusunu döyüşə tam hazır vəziyyətə gətirməkdə tam haqlıdır, hansısa qüvvə onu öz iradəsindən çəkindirə bilməz.

Bazar ertəsi Putinin vasitəçiliyi ilə baş tutan Sankt-Peterburq görüşü barədə hələ ki konkret bir fikir demək mümkün deyil. Putinin mətbuat katibi Dmitri Peskovun dediklərindən belə aydın olub ki, əslində Rusiyanın əsas məqsədi atəşkəsi saxlamaqdır. **"İndi əsas vəzifə hərbi əməliyyatların bərpa olunmasından sığortalanmaq və Qarabağ ətrafında toqquşmaların başladığı məqamda mövcud olan boşluqlara imkan verməməkdir"** - Peskov bildirib. Rusiya prezidentinin sözçüsü etiraf edib ki, qarşıdakı danışıqlar mürəkkəb olacaq.

***

**Politoloq Elxan Şahinoğlu Sankt-Peterburqda görüş başlamazdan Kremlin Azərbaycana mesaj göndərməsini təsadüfi saymır:** "Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburq şəhərində keçiriləcək görüşünün əsas məqsədi kimi hərbi əməliyyatların bərpasından sığortalanmaq olduğunu göstərib. Bəs münaqişənin həlli? Təəssüf ki, mənim Sankt-Peterburq görüşü ilə bağlı proqnozlarım doğrulmaqdadır. Hazırkı mərhələdə - bu mərhələnin nə qədər uzanacağını kimsə bilmir - Putini münaqişənin həlli yox, atəşkəsin ömrünü uzatmaq düşündürür. Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmadan atəşkəsin ömrünü uzatmaq status-kvonun ömrünü uzatmaq deməkdir. Status-kvonun ömrünün uzanması isə işğalçının maraqlarına uyğundur. Putin topu bizim meydana atır. Ya biz bu topu götürüb qol vurmağa çalışmalıyıq, ya da müdafiədə paslanmalıyıq".

**İlkin məlumatlara görə, Azərbaycan prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə görüşündə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsində "status-kvo" qəbuledilməzdir. "Erməni silahlı qüvvələri bölgədən çıxarılmalıdır. Ümid var ki, Qarabağ nizamlanmasına konstruktiv dinamika vermək mümkün olacaq", - deyə o vurğulayıb. Ermənistan prezidenti Serj Sərkisyan isə Qarabağ məsələsinin nizamlanmasında göstərdiyi səylərə görə Putinə təşəkkür edib. "Bizim Qarabağa dair mövqeyimiz hamıya bəllidir. İstəyirik ki, məsələ müstəsna olaraq sülh yolu ilə həll olunsun. Lakin təəsüf ki, təkcə bir tərəfin istəyi ilə belə münaqişələr həll olunmur. Əgər biz əvvəl əldə edilmiş razılaşmalar üzrə irəliyə gedə bilsəydik yaxşı olardı"** - Sərkisyan deyib.

S.Sərkisyanın növbəti dəfə özünü "mələk" donunda təqdim etməyə çalışdığı aydın görünür. Ancaq Azərbaycan prezidenti Rusiyaya yola düşməzdən öncə demişdi ki, Bakı daha 20 il danışıqların davam etməsinə dözmək fikrində deyil. Milli Məclis sədrinin müavini Bahar Muradova da demişdi ki, iyun görüşündən sonra Azərbaycan qəti qərarını verəcək.

Bu arada bəzi deputatlar da səfərbərlik çağırışı ilə çıxış edir. Cəmiyyətdə əksəriyyətin mövqeyi belədir ki, görüş nəticəsiz başa çatsa, o halda Azərbaycan əməliyyatlara başlamalıdır. Formula-1 yarışlarından sonra savaş risklərinin artacağı barədə də çox deyilib və bütün müşahidələr vəziyyətin gərginləşəcəyi versiyası üzərində dayanmağa əsas verir.

***

**Politoloq Arzu Nağıyev hesab edir ki, Rusiya təşəbbüsü ələ almaqla bir nüfuz davasına girişib:** "Təbii ki, burada onun öz maraqları var. Əgər Dağlıq Qarabağ münaqişəsinin həlli məhz Rusiya vasitəsilə həll edilərsə, artıq Qərbin sanksiyalarına da yenidən baxması mümkündür. Digər tərəfdən, sülh bərqərar olsa, Rusiya silah bazarında müəyyən geriliklər edir. Ermənistan Rusiyanın vassalı olmaqla yanaşı, onun iqtisadiyyatının 95 faizi Rusiya ilə bağlıdır. Onların hər ikisi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdürlər. Belə olan halda, Rusiya öz sözünün ermənilərə deməklə yanaşı, münaqişənin həllində dönüş yarada bilər. Düşünürəm ki, Rusiya bu məsələdən yüksək səviyyədə istifadə etməlidir". **A.Nağıyevin fikrincə, Azərbaycan sözügedən görüşdə sərt, diktə edən tərəf kimi çıxış edə bilər:** "Sonuncu Vyanada keçirilən görüşdə Azərbaycan tərəfi üzərinə yalnız atəşkəsin bərqərar edilməsi ilə bağlı öhdəliklər götürmüşdü. Lakin bugünkü görüşdə Azərbaycan daha sərt çıxış etmək imkanına malikdir. Artıq münaqişənin həlli istiqamətində konkret addımların atılmasının vaxtı gəlib çatıb. Hesab edirəm ki, bu görüşdən sonra ATƏT-in Minsk Qrupu konkret addımlarla bağlı bəyanatlar verəcək və görüşdə əsas müzakirəsi də məhz bu olacaq. Bütün bunlara baxmayaraq, sonuncu variant kimi təbii ki, münaqişənin hərbi yolla həlli gündəmə gələ bilər və bu olsa, erməniləri danışıqlar masasına əyləşdirmək olar. Bu isə Sərkisyana baha başa gələ bilər. Ona görə də o, həm daxili müxalifəti lokallaşdırmalı, həm də xarici havadarlarla razılığa gəlməlidir. Bir sözlə, bütün variantlarda "zaman bizə işləyir"".

**Politoloq hərbi əməliyyatları real sayır. Ancaq hesab edir ki, hərbi əməliyyatların uzun sürmə ehtimalı azdır:** "Çünki son hadisələr göstərdi ki, bunu regional güclər də istəmir. Buna görə də istər Qərb, istərsə də cənab Putin başda olmaqla, Rusiya bu tarixi şansdan istifadə etməlidirlər. Əks təqdirdə, mühüm tərəfdaşlarının inamını tam itirməklə üz-üzə qalacaqlar".

Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburqda gözlənilən görüşü Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində müsbət addımdır. "Trend"in məlumatına görə, bunu Avropa İttifaqının (Aİ) Azərbaycan nümayəndəliyinin rəhbəri Malena Mard jurnalistlərə açıqlamasında deyib.

**M.Mard vurğulayıb ki, Aİ münaqişənin sülh yolu ilə həlli istiqamətində atılan bütün addımları dəstəkləyir:** "Avropa İttifaqı olaraq biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıyıq. Biz münaqişənin sülh yolu ilə həlli istiqamətində bütün səyləri, o cümlədən ATƏT-in Minsk Qrupunun səylərini dəstəkləyirik. Bu görüş, əlbəttə ki, münaqişənin həlli istiqamətində müsbət bir addımdır".

O qeyd edib ki, münaqişənin hərtərəfli həllinə nail olmaq üçün tərəflər arasında dialoqun qurulması vacibdir, çünki status-kvo qəbuledilməzdir.

Hər halda, Rusiyadan fərqli olaraq, Avropada status-kvonu qəbulolunmaz sayırlar. Bu, Qarabağ məsələsinə münasibətdə Qərb-Rusiya ziddiyyətlərinin görünən tərəfidir. Hər halda, görünən budur ki, status-kvonu saxlamaq istəyən Rusiya "Qarabağın açarını" özündə saxlamaqda qərarlıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY




# Axtarışda olan insan alverçiləri...

## Qadın satan 3 bacı, ruhi xəstələri satan dəstə başçısı...



Səfərzadə Aybəniz Mirəddin qızı - 29.05.1970-ci ildə Qəbələ rayonunda anadan olub, Bakı şəhər sakinidir. Barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin insan alveri maddəsi ilə 2007-ci ildə axtarış elan edilmişdir. İnterpol kanalları ilə beynəlxalq axtarışdadır.



Səfərova Almaz Mirəddin qızı - 06.09.1969-cu ildə Qəbələ rayonunda anadan olub, Qəbələ rayon sakinidir. Barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin insan alveri maddəsi ilə 2007-ci ildə axtarış elan edilmişdir. İnterpol kanalları ilə beynəlxalq axtarışdadır.

**Daxili İşlər Nazirliyinin (DİN) İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi axtarışda olan insan alverçilərinin siyahısını açıqlayıb. Siyahıda 3-ü kişi olmaqla, 37 nəfərin adı var. Bu şəxslərdən yalnız biri- Tuxtaboeva Masxura Movlonovna xarici ölkə (Özbəkistan) vətəndaşıdır, o, 2015-ci ildən axtarışa verilib.**

Musavat.com-un məlumatına görə, bu şəxslər həmçinin İnterpol kanalları ilə də beynəlxalq axtarışdadırlar. Siyahıda olanlardan biri - 2004-cü ildən axtarışda olan Çobanzadə Rafael Məmməd oğlu 2015-ci ilin dekabr ayında Moskvada həbs edilib. R.Çobanzadə siyahıda olanlar arasında ən uzun müddət istintaqdan yayınmağı bacaranlardandır.

Cinayət Məcəlləsinin 243.2.1 (Fahişəliyə cəlb etmə; şəxsin köməksiz vəziyyətindən, fiziki və ya psixi qüsurlarından istifadə etməklə törədildikdə) və 243.2.2-ci (Fahişəliyə cəlb etmə; mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddələri ilə beynəlxalq axtarışa verilən 62 yaşlı R.Çobanzadə qadınların fiziki və psixi köməksiz vəziyyətindən istifadə edən mütəşəkkil dəstəyə rəhbərlik edirmiş. O, hələ Azərbaycana ekstradisiya olunmayıb.

Digər məlumatlar isə insan alverçiləri olaraq axtarışda olan bacılar barəsindədir. 1970-ci il təvəllüdlü Səfərzadə Aybəniz Mirəddin qızı və 1969-cu il təvəllüdlü Səfərova Almaz Mirəddin qızı 2007-ci ildən axtarışdadırlar. Onların ögey bacıları Səfərova Gülbəniz 2006-cı ildə həbs edilib. O da digər bacıları kimi insan alveri ilə məşğul olurmuş.

G.Səfərova 2006-cı ildə Denisova Zahirə Abbas qızı ilə əlbir olaraq bir neçə qadını Pakistana fahişəliklə məşğul olmağa göndərərkən Bakıda hava limanında həbs ediliblər. Onlar Pakistana göndərmək istədikləri qadınların pasport məsələləri ilə bağlı problemlərini həll edərək Azərbaycandan turist adı ilə onlara viza təşkil edirmişlər. Bütün xərclər də Səfərova bacıları tərəfindən qarşılanırmış.

Bacılardan biri həbs edilsə də, digər ikisi 9 ildir hüquq-mühafizə orqanlarından gizlənə bilirlər. Onların hazırda Pakistanda olduğu ehtimal olunur.

Siyahıya nəzər yetirərkən əsas diqqət çəkən məqam bu şəxslərin 8-10 ildir hüquq-mühafizə orqanlarından, hətta İnterpoldan necə qaçmasıdır.

**Sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev məsələ ilə bağlı musavat.com-a danışarkən bildirdi ki, insan alverçiləri ilə mübarizə əksər dünya ölkələrində olduğu kimi, Azərbaycanda da çətindir:** "Son illərdə İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi bu məsələlərlə bağlı mühüm addımlar atır. Ancaq bir məsələni də qeyd edək ki, bu cür cinayət əməllərinin miqyası çox genişdir. Pakistanda, Hindistan, Dubay, MDB ölkələrində belə bu cür hallar mövcuddur. Azərbaycanda insan alveri ilə məşğul olan şəxslər aldatdıqları, bu yola sövq etdikləri qadınları əsasən Pakistan, Hindistan və digər ərəb ölkələrinə aparırlar. Metod da eynidir. Onlar pasport məsələlərini həll edirlər, yol xərclərini qarşılayırlar, bəzilərini buradan başqa iş adı ilə aldadıb aparırlar, bəziləri isə öz razılığı ilə gedirlər. Yayılan rəsmi məlumatda da görünür ki, axtarışda olan şəxslər İnterpol xətti ilə axtarılırlar. Lakin onlar elə yerlərdə, elə şəraitdə gizlənirlər ki, onların tapılması çox çətin olur. Bəzi ölkələr var ki, bizim onlarla qarşılıqlı müqavilələrimiz yoxdur. Bu da həmin şəxslərin tapılmasına çətinlik yaradır. Bu cür şəxslər getdikləri ölkələrdə, əsasən qeyri-qanuni şəkildə yaşayırlar, adlarını dəyişdirirlər, saxta yollarla pasportlar əldə edirlər, hətta estetik əməliyyatlar etdirərək gizlənənlər də var".

**Arzu Nağıyev bu cür cinayət əməlləri törədən şəxslərin gizləndikləri ölkələrdə himayə oluna biləcəkləri ehtimalının inandırıcı olmadığını deyir. Səbəbini isə belə izah edir:** "Əgər bu şəxslər İnterpol vasitəsilə də axtarışa verilibsə, onların himayə olunması inandırıcı deyil. Bunlar elə kontingentdir ki, həbs olunduqları halda hər kəsin, həmçinin onları himayə edən şəxslərin də adını çəkəcəklər. Bu, çox ağır cinayət sayıldığından himayədarlar da bunlardan qaçır".

**İ.MURADOV**

**Son aylarda İranla Ermənistan arasındakı yaxınlaşma Azərbaycan tərəfdə ciddi etirazlarla müşahidə olunur. Xüsusilə hər iki ölkənin qarşılıqlı olaraq viza rejimini aradan qaldırması, hərbi əməkdaşlıqla bağlı bir sıra addımlar atmağa hazırlaşması ictimaiyyətimizdə hiddət doğurub.**

# İran təcavüzkar ölkə ilə əlaqələrini möhkəmlədir

Dünən məsələ ilə bağlı XİN-in münasibətini öyrənməyə çalışsaq da, mümkün olmadı. Gün ərzində zənglərimizə rəsmi qurumdan cavab verən tapılmadı.

**İqtidaryönlü deputat Zahid Oruc** bildirdi ki, rəsmi Tehranın bölgədə maraqlarını həyata keçirmək üçün apardığı fərqli siyasət yaxından izlənilir: "Ermənistan İranın Cənubi Qafqazda möhkəmlənməsi üçün variantlardan biridir. Bu ölkənin Rusiya əleyhinə mövqeyindən bəhrələnməyə çalışan dairələrdən biri də rəsmi Tehrandır. Nəzərə alaq ki, Amerika da uzun illər Qafqazda möhkəmlənmək üçün Azərbaycan və Ermənistanla müxtəlif fərqli əməkdaşlıq siyasəti yürüdüb. Bu baxımdan İranın bölgədə möhkəmlənmək üçün Ermənistan planını ikinci dərəcəli saya bilmərik. Açıq şəkildə görünən odur ki, aprel ayından başlayaraq, İran-Ermənistan əlaqələri yeni mərhələyə qədəm qoyub. Azərbaycanın ərazi bütövlüyünün təminatı Tehranda qıcıq yaradır? Düşünürlər ki, biz gələcəkdə yeni-yeni iddialaramı düşə bilərik? Azərbaycana təsir göstərmək o zaman çətin olar? İyunun 5-6-da Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın İrana səfəri başladı və onu ən mühüm ölkənin təmsilçisi kimi qəbul etdilər. Media bunu xarici aləmə daha çox qabartdı. Ermənistanın İran üçün xüsusi çəkisi olmasa da, Həsən Ruhani bəlkə də yeganə prezidentdir ki, Sərkisyana salam göndərir, Ermənistana səfər planlaşdırır, viza rejimini aradan qaldırır. Azərbaycanın bölgədə vəziyyəti dəyişdiyini görən İran sürətli addımlar atmağa başlayıb".



**Zahid Oruc:**
"Tehran Azərbaycan və Ermənistanı tərəzinin eyni gözünə qoya bilməz"

**Deputat mövcud vəziyyətdə Azərbaycanın atmalı olduğu addımlardan da danışdı:** "Biz İranın bölgədə və dünyadakı rolunu yaxşı təhlil edə bilirik. Biz tərəfdən bu ölkə ilə münasibətləri pisləşdirmək üçün heç bir istək yoxdur. Əksinə, ölkə başçısı Avropa və Amerikanın illər öncə İrana qarşı basqısını neytrallaşdıra bildi. Amma indi sanki rəsmi Tehran Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlamasında iştirak edir. İslam ölkəsi kimi çıxış edərək, Fələstin məsələsinə görə İsraili dünyada düşmən ölkə elan edən İran Qarabağ məsələsində bu mövqedən çıxış etmir. Amma biz din altında qərar verilməsinin əleyhinəyik. Azərbaycan İrana qarşı səlib yürüşlərində yenə də iştirak etmir, Cənubi Azərbaycan məsələsini əsas siyasi xətt kimi irəli sürmür. Amma İran da düşünməsin ki, sonsuza qədər onların mövqelərini qəbul edəcəyik. Siyasi dairələrimiz İrana mesajlarını çatdırmaqdadırlar. Ümidvaram ki, bunlar nəticə verəcək. Həsən Ruhaninin İrəvana getməsi ölkənin vəziyyətini dəyişəsi deyil. Amma İran Azərbaycan və Ermənistanı tərəzinin eyni gözünə qoya bilməz. Tezliklə münasibətlərin düzələcəyinə əminəm".



**Fazil Mustafa:**
"İslamdan yekə-yekə danışan İran erməni zülmünə şərik ölkə kimi çıxış edir"

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa İranın Ermənistanla əlaqələrini möhkəmləndirməsinin İslam ənənələrinə zidd olduğunu bildirdi:** "İrana biz ağıl öyrədə, hansısa ölkə ilə əməkdaşlıq etməməsi üçün nəsə deyə bilmərik. Amma Ermənistanla əməkdaşlıq edirsə, bu, artıq etik cəhətdən İslam prinsiplərinə uyğun gəlməmək baxımından qiymətləndirilə bilər. Çalışmalıyıq ki, Tehranın Ermənistanla münasibətləri bizə qarşı təhdidə çevrilməsin. İran düşmən ölkəyə dəstək verən dövlətdir. Yeganə müsəlman ölkəsidir ki, Ermənistanda səfirliyini açıb. İslam dəyərləri baxımından atılan addım heç bir məntiqə sığmır. Amma bütün hallarda biz İran ictimaiyyətinin məsələyə olan həssaslığına diqqət yönəltməliyik. İslamdan yekə-yekə danışan, başqa ölkələri İslam dininə əməl etməməkdə suçlayan bir ölkənin bu dəyərlərə qarşı çıxış etməsi, soyqırım törədən bir dövlətin yanında olması yanlış siyasətdir. İran bu gün erməni zülmünə şərik olan bir ölkə kimi çıxış edir. İradımızı bildirməliyik".

**Deputat hər iki ölkə arasında viza rejiminin aradan qaldırılması ilə bağlı Azərbaycanın mövqeyinin necə olmasına da aydınlıq gətirdi:** "Azərbaycan İran və Ermənistana görə vizanı qaldırmamalıdır, bunu özünə görə etməlidir. İran üzərindən viza götürülməlidir. Naxçıvanın blokadadan çıxması, əhalinin vəziyyətinin yaxşılaşdırılması üçün bu çox vacibdir. Bir çox məsələlər var ki, həllinin çox böyük əhəmiyyəti var. Təəssüflər olsun ki, bu məsələlərdə həssaslıq göstərmirik. Buna borclu olsaq da".

**Cavanşir ABBASLI**

# İran xaricdəki pullarını təyyarə almaqla geri qaytarır

## "Boeing" şirkəti ilə müqavilənin dəyəri 17 milyard dollar təşkil edir

**İranın "İran Air" aviaşirkəti Amerikanın "Boeing" şirkəti ilə 100 yeni sərnişin təyyarəsinin alınmasına dair razılıq əldə edib. Bu haqda İranın aviasiya rəsmiləri açıqlama verib. Əgər saziş imzalanarsa, bu, "İran Air"in cari ildə ikinci çoxmilyardlıq sövdələşməsi olacaq. Bu, Vaşinqtonun İrana qarşı yanvar ayında iqtisadi sanksiyaları aradan qaldırmasından sonra İran və Qərb ölkələrinin təyyarə şirkətləri arasında 200 təyyarənin satışına dair ayrı-ayrılıqda əldə edilmiş üç razılaşmadan biridir.**




Razılaşmadan bəhs edən İranın mülki aviasiya idarəsinin rəhbəri Əli Abedzadə ölkənin aviasiya sahəsindəki təyyarələrin yenilənməsinin vacibliyindən danışıb. O bildirib ki, ölkədə 250 təyyarə var, bunların 230-u yeniləri ilə əvəz edilməlidir. Əli Abedzadə bildirib ki, "Boeing" şirkəti ilə razılaşma ABŞ-ın Maliyyə Nazirliyi tərəfindən təsdiqlənməlidir.

"Boeing" şirkəti ilə müqavilənin dəyəri 17 milyard dollar təşkil edir. Əgər müqavilə təsdiq edilsə, İran 1979-cu ildə İslam inqilabından sonra ilk dəfə olaraq "Boeing" şirkətindən təyyarə alacaq. Qeyd edək ki, bundan öncə yanvar ayında İran Avropanın "Airbus" təyyarə şirkəti ilə 118 təyyarənin alınmasına dair ilk razılıq əldə etmişdi. Bu müqavilədə də "Airbus" təyyarəsinin materiallarının 10 faizi Amerikada istehsal edildiyi üçün şirkətlə müqavilənin ABŞ rəsmiləri tərəfindən təsdiqi lazımdır.

Ekspertlər isə hesab edir ki, sanksiyaların ardından İran Amerika və Qərb banklarında olan milyardlarla vəsaitini daha asan yolla, təyyarə və bu kimi infrastruktur avadanlıqlarının alınması ilə çıxartmaq istəyir. Ardıcıl olaraq, aviaşirkətlərlə müqavilələrin imzalanmasının səbəbi də budur.

Məqsədlərdən biri də ABŞ-la ticarət tərəfdaşlığını inkişaf etdirib iki ölkə arasındakı münasibətləri yumşaltmaqdır.

**İqtisadçı ekspert Natiq Cəfərli də bildirdi ki, İran xarici banklardakı pulları hesabına həm infrastrukturunu yeniləməyə , həm də o vəsaitləri vaxtında geri qaytarmağa çalışır:** "Təyyarə alınması ilə bağlı birinci müqavilə "Airbus"la bağlanmışdı. 28 milyard dollarlıq böyük bir müqavilə idi və Fransa şirkəti ilə bağlanmışdı. İkinci müqavilə isə "Boeing"lə bağlanmaq üzrədir. Bunun birinci səbəbi, İran aviaparkının sanksiyalar dövründə kifayət qədər köhnəlməsi idi. Müxtəlif hesablamalara görə, İranın Amerika banklarında 70-100 milyard dollar arası vəsaiti var. Ola bilər ki, danışıqların bir bəndi olaraq həmin vəsait yüksək texnoloji məhsulların alınması ilə bağlı Amerika ilə ümumi razılığa gəlinib".

**Ekspertin fikrincə, İran tərəfi düşünür ki, uzun zaman məhkəmə çəkişmələrində vaxt itirməkdənsə, qanuni yolla o vəsaitləri geri qaytarılmasına çalışmaqdansa, Amerika ilə anlaşıb həmin vəsaitlərin bir hissəsinə İrana lazım olan texnoloji məhsulların alınması daha məntiqlidir:** "Son müqavilə də bununla bağlıdır. İranın aviaparkının yenilənməsinə, təzə təyyarələrin alınmasına onsuz da ehtiyac var idi. Bu yolla İran həm öz vəsaitlərinin geri qaytarılmasına nail olur, həm də Amerika ilə münasibətlərin normallaşmasına təsir göstərir. Çünki ortada böyük biznes maraqları olanda, dövlətlərarası münasibətlərdə də yumşalmalar və isti münasibətlər yaranır. Bu baxımdan düşünürəm ki, İran ABŞ banklarında olan vəsaitləri bu cür məhsullar almaqla geri qaytarmağa çalışacaq və "Boeing"lə anlaşma bunun ilkin addımı ola bilər".

**Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016

# Bakıda 30 ailə evindən çıxarılır

## Sakinlər dövlət başçısına müraciət etdi: "Bizi küçəyə atırlar, kömək istəyirik"

**Bakının Yasamal rayonunda 30-a yaxın ailənin evi qanunsuz olaraq sökülür. Musavat.com-a müraciət edən sakinlər bildirirlər ki, evlərinin sənədləri olsa da, yaxınlıqda bina tikən şirkət onların məhəlləsini də dağıtmaqda israrlıdır.**

Ərazi dövlət ehtiyacı üçün alınmır, hansısa şirkət vətəndaşları qorxuzaraq evlərindən çıxmasını tələb edir. Üstəlik, bir neçə gündür ki, mənzillərin suyu da qanunsuz olaraq kəsilib. Vətəndaşlara isə evlərinin əvəzinə mikrorayonun ucqarında təmirsiz, ofis üçün nəzərdə tutulan sahələr verilir. "Üç gündür suyumuzu kəsiblər. Yayın günündə, orucluqda belə iş olar? Məhəllənin xəstəsi var, uşağı var, uzaqdan gedib su gətiririk",- Məhəmməd Naxçıvani küçəsi 25 ünvanının sakinləri şikayətlənirlər. Burada yaşayan otuza yaxın ailə acınacaqlı durumda evlərinin sökülməməsi üçün mübarizə aparır. Artıq bir neçə mənzil dağıdılıb. "Bizim əlimizdə sənədimiz var, evimiz sənədlidir. Qanunsuz olaraq necə dağıda bilirlər?",- sakinlər etirazlarını bildirirlər.






**Sakinlərdən Mehriban Məmmədova bildirir ki, onları hökumət də köçürmür:** "Bu, "Deluxe" adlanan şikətdir. Bizi məcbur edir ki, evlərimizdən çıxaq. Biz razı deyilik. Təklif etdikləri yer yaşayış üçün yararlı deyil, ümumiyyətlə, yaşayış üçün nəzərdə tutulmayıb, ofis üçün nəzərdə tutulan yerlərdir. Təmir də edilməyib. Bizə təmir pulu da verilmir. Orada necə yaşamaq olar? Dövlət, hökumət bizə niyə sahib çıxmır?"

**Digər sakin də deyir ki, əslində ofis kimi tikilən sahələri onlara ev kimi vermək istəyirlər:** "O ofislərdə ancaq dörd divardır, təmir, qapı-pəncərə, heç nə yoxdur. Bizim pulumuz haradandır ki, oranı təmir edib köçək? Şirkət deyir ki, bizə pul, kompensasiya verilməyəcək, həmin verdikləri ofisləri özümüz təmir edib ev halına salmalıyıq. Biz niyə mənzilimizdən çıxıb hansısa ofisin təmiri üçün pul axtarmalıyıq ki? Evlərə artıq məktub da paylanılıb ki, çıxaq. Biz mənzillərimizdən çıxmayacağıq. Bizi normal şəkildə evlə təmin etsinlər".

**İsmayıl Məmmədov da bildirir ki, sakinlər evlərindən çıxmağa razı deyillər və dövlət qurumlarına bununla bağlı şikayətlər də ünvanlayıblar:** ""Deluxe" şirkətindən deyirlər pulumuz yoxdur, buna görə bizə kompensasiya verilmir. Heç kim razı deyil evindən çıxmağa. Bizim hamımızın sənədi var. Yazmadığımız yer qalmayıb. Prezident Administrasiyasına yazmışıq, Mehriban xanım Əliyevaya yazmışıq, teleqram vurmuşuq. Aparata qəbula da getmişik, dedilər, problemimizlə maraqlanacaqlar".

**Bahar xanım isə bildirir ki, iyunun əvvəlində rəsmi qurumlara edilən müraciətlərə hələ cavab gəlməyib:** "Bizim səsimizi eşidən yoxdur". **78 yaşlı Faiq Əliyev isə deyir ki, günlərdir ki, evdə susuz qalıb:** "Su gətirməyə gücüm çatmır, uzaqdan gətirirlər. Məscidə namaz qılmağa getmək istəyirəm, evdə bir qab su tapmıram, belə dərd olarmı?".

**Sakinlər bildirirlər ki, bir neçə mənzili artıq qəflətən gəlib söküblər. Sakinlərə isə bir neçə gün vaxt verilib ki, evlərini öz xoşları ilə tərk edib təklif olunan ofislərə getsinlər:** "Biz İlham Əliyevə, dövlət başçısına müraciət edirik ki, belə özbaşınalıq olmaz. Biz şirkətin özbaşınalığının qurbanı olmuşuq. Kömək istəyirik, bizi küçəyə atırlar".

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**







# Beşbarmaq pirində beş qat nəzir yığılır

## Ziyarətçilər pilləkənin ən alt qismindən üstə qədər nəzir paylaya-paylaya gəlməli olur ki, düşəndə onların cibində qəpikləri də qalmır…

**Bir qrup insanlar var ki, onlar ev almaq, arzularına çatmaq, övladlarına, özlərinə şəfa tapmaq üçün müxtəlif ziyarətgahlara və pirlərə üz tutur. Bura müxtəlif nəzirlər verməklə və ya orada olan "müqəddəs daşlar" bədənlərinə sürtməklə ağrı-acıdan azad olunacaqlarını, niyyətlərinə çatacaqlarını düşünürlər.**

Heç kimə sirr deyil ki, əli hər yerdən üzülən insanların əksəriyyəti ya falçı yanına, ya da ziyarətgahlara üz tutur, nəzir deyir, qurbanlar kəsir. Hətta ziyarətgahların həyətindəki ağaclara parçalar bağlamaqla istəklərinin reallaşacağını düşünənlər də var.

İnsanlarımız bu ocaqları özlərinə bir növ uğur talismanı, təsəlli yeri sayır. Təbii ki, insanların bu inancından istifadə edən bir sıra şəxslər bu cür müqəddəs yerləri alverxanaya çevirib. Bu cür yerlərdən biri də Siyəzən rayonunda, Beşbarmaq dağının yamacında yerləşən Xıdır Zində piridir.

Bu pirin adı insanlar tərəfindən daha çox Beşbarmaq piri kimi tanınır. Beşbarmaq dağı dəniz səviyyəsindən 445 metr yüksəklikdədir. Dağın üzərində çoxlu sayda karst tipli boşluqlara, yuvacıqlara rast gəlmək mümkündür. Qayaya Şərq və Qərbdən baxarkən o, insan əlində olan barmaqları xatırladır və çox güman ki, elə buna görə də bura Beşbarmaq adı verilib. Qeyri-adi görünüşü ətraf ərazilərdə yaşayanlar tərəfindən oranın ibadət olunan pirə çevrilməsinə səbəb olub.







Yüksəklikdəki pirə pilləkənlə qayaarası yolla çıxırlar. Zirvəyə çıxmaq, xüsusən də yaşlılar və qadınlar üçün təhlükəli görünür. İri, dəmir pilləkənlər ensizdir və iti bucaq altındadır. Bir-birinin ardınca basabas olan bu pilləkənlərdə halı pisləşən yaşlı qadınlar, uşaqlar da olur. Pirin həyətində müxtəlif təsbehlər, göz muncuqları satılır. Pirin pilləkəninin aşağısından başlayaraq yuxarıya qədər nəzir yığan qadınlar oturur. Onlar gəlib gedən hər kəsdən nəzir istəyirlər. Vay o günə ki, deyəsən ki, pulum yoxdur. O zaman "pulun yoxdur, niyə bura gəlmisən?" tipli sözlərlə pirə gələnləri acılayırlar. Pilləkənin ortasına çatdıqda isə bir qadın ziyarətçiləri böyük bir daşın altındakı boşluqdan keçirərək ora nəzir qoymalarını istəyir. Səbəb kimi isə pilləkən olmayan vaxtlarda həmin yerdə kiçik bir qız uşağının düşüb öldüyünü əsas gətirir. "Niyə həmin uşağın öldüyü yerə nəzir qoymalıyıq" sualımızı cavabsız qoyan qadın bunun vacib əməl olduğunu deyir. Nəhayət, zirvə... Burada da bizi nəzir qutusu qarşılayır. İçəridə isə bir cavan oğlan ziyarətçilərə beşbarmağın hekayəsini danışır. Bununla yanaşı, bu oğlan həm də gələn ziyarətçilərlə nəsə danışır və qeydlər aparır. Oğlanın hansı qeydləri apardığını öyrənməyə çalışdıq. Məlum oldu ki, gənc oğlan bura gələn ziyarətçilər kimə yasin oxutmaq istəyirsə, onun adını qeyd etdirir və bunun qarşılığında da qutuya pul atdırır. Oğlan isə ziyarətçilərə söz verir ki, yasini oxuyacaq. Bir neçə il öncə ziyarətgahda bir kuklanın ortaya qoyulduğu və insanların həmin kuklanın başına fırlanaraq ora pul atdıqlarına dair məlumatlar, görüntülər yayılmışdı. İndi isə bu kuklanı bir qab daş və əl işarəsi əvəz edir. İnsanlara əslində adi olan bu daşlardan niyyət edərək birini götürüb özü ilə saxlamağı, niyyətləri həyata keçdikdən sonra isə həmin daşı yenidən gətirib yerinə qoymaq lazım olduğunu deyirlər. Göründüyü kimi, insanlar pilləkənin ən alt qismindən üstə qədər nəzir paylaya-paylaya gəlməli olur ki, düşəndə onların cibində qəpikləri də qalmır.

Maraqlıdır, insanların öz diləklərinin reallaşmasını, sağlamlıqlarına şəfanı pirlərdə, ziyarətlərdə axtarması nə dərəcə düzgündür?

**Dini ekspert Kənan Rövşənoğlu insanların qədimdən bəri bu inanclarda olduğunu bildirdi:** "Ziyarətgah deyilən yerlər övliyaların, müqəddəs insanların dəfn olunduğu və ya yaşadığı yerlər olur. İnsanlar qədimdən bəri bu inancda olublar ki, həmin müqəddəs şəxslərin yaşadığı, olduğu bu yerlərdə ilahi bir hüzur, mənəvi rahatlıq tapırlar. Eyni zamanda bu yerlərdə dua edir, təvəssül etməklə, o müqəddəs şəxslər vasitəsilə Allaha dua etməklə arzularının reallaşmasına ümid ediblər. Bu səbəbdən də xalq arasında bu cür yerlərə inanc, mənəvi ehtiyac olub. İnsanlar sıxıntılı, çətin günlərində bu cür yerlərə üz tutublar. Təbii ki, bütün digər yerlərdə olduğu kimi, burada da insanların saf, mənəvi ehtiyac halları kimlərinsə istismar yerinə çevrilib. Orda yığışan dilənçilər ora gələnlərin mənəvi hallarından istifadə edərək ruhi istismar hərəkətləri edərək müxtəlif adlarla pul qoparmağa çalışırlar. Çünki ora gedənlər xeyir işlər görməyə niyyətli olur, bir az da duyğulu olur və fırıldaqçılar da bundan istifadə edirlər".

**Ziyarətçilərin pir və ziyarətgahlardakı daşlardan imdad ummaq məsələsinə gəlincə isə dini ekspert bunun yanlış olduğunu bildirdi:** "Daşdan nə üçün istifadə olunduğunu bilmirəm. Amma şəfa verən Allahdır, daş deyil".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 135 (6456) 21 iyun 2016

# Ukraynada 24 azərbaycanlını kim oğurlayıb?

## 2 soydaşımız bu gün də girovluqdadır

**Ukraynada azərbaycanlıların oğurlanması ilə bağlı aylar öncə yazdıqlarımız yenidən gündəmdədir.**

"Yeni Müsavat"ın 25 noyabr 2015-ci il tarixli sayında "Azərbaycandan Ukraynaya uzanan adam oğurluğunun şok təfərrüatları" sərlövhəli yazıda (http://musavat.com/news/kriminal/azerbaycandan-ukraynaya-uzanan-adam-ogurlugunun-shok-teferruatlari_307350.html) Donetsk Azərbaycanlıları Konqresinin sədri Malik Pirverdiyevin oğlu Cəlal Pirverdiyevin və Ukrayna Tibb Universitetinin 4-cü kurs tələbəsi Fərid Məmmədovun oğurlanmasından söhbət açılırdı. Bildirilirdi ki, Fəridin atası oğlunu 350 min dollar müqabilində azad etdirə bilib. Yayılan son məlumatlara görə, Ukraynada imkanlı azərbaycanlıların özləri, övladları və ya yaxınları oğurlanır və azad olunması müqabilində külli miqdarda pul tələb olunur. Bu əməliyyatların hamısı isə bir dəstə tərəfindən reallaşdırılır. Bir müddət əvvəl **Ukraynanın paytaxtında olan təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** "Azadlıq"a həmyerlilərimizin oğurlanması ilə bağlı maraqlı fikirlər söyləyib. Deyib ki, Ukraynada yaşayan azərbaycanlıların oğurlanması ilə bağlı informasiyalar həqiqətdir və orda yaşayan soydaşlarımızın narahatlığı ciddi xarakter alıb: "Əsas hədəf imkanlı ailələrin övladları və Ukraynada fəaliyyət göstərən iş adamlarıdır. Bu yaxınlarda Kiyevdə olduğum zaman həmsöhbətlərimin azərbaycanlıların oğurlanması ilə bağlı dediklərinə o qədər əhəmiyyət verməsəm də, mətbuatda gedən məqalələrdən sonra məsələ ilə yenidən maraqlandım və əlavə məlumatlar əldə etdim. Artıq 24 nəfər azərbaycanlı oğurlanıb girov saxlanıb, pul müqabilində azad olunublar. Hazırda iki nəfər - Brovarı şəhərində "Bakinski dvor" kafesinin sahibi - İlqar adlı şəxs və bir tələbə girovluqdadır".



**Təhlükəsizlik eksperti həmyerlilərimizin oğurlanmasının Ukraynada daxili işlər nazirinin dəyişdirilməsindən sonrakı dövrə təsadüf etməsinə diqqət çəkib:** "Məsələ burasındadır ki, bu cinayətlər Ukraynada daxili işlər naziri Avakov təyin olunandan sonra başlayıb və qarşısı da alınmır. Adam oğruları Rusiyadan gəlir, hədəflərini ələ keçirdikdən sonra Kiyev ətrafında gizlədir, Rusiyadan oğurlanan şəxslərin yaxınlarına döyülmüş, üz-gözü qanlı videolarını, fotolarını göndərir, pulu isə əsasən Bakıda alırlar. Olur ki, Rusiyada, nadir hallarda Ukraynada da alırlar. Bu işin başında Bakıdan olan avtoritet dayanır".

**İ.İsmayılın sözlərinə görə, hədəfin seçilməsi, yönləndirilməsi xəbərini dəstənin Ukraynadakı adamları verir. Növbəti addım dəstə üzvlərinin Rusiyadan gəlib oğurluğu həyata keçirməsi olur. "Ov" Ukrayna ərazisindən çıxarılmır. Daha sonra danışıqlar, alver gedir. Adətən cinayətkarlar 2 milyon ABŞ dollarının verilməsi tələbini irəli sürür, sonra enmələr də müzakirə edilir. Oğurlanmış insanların sahiblərinə dəhşətli hədə-qorxu gəlinir ki, hüquq-mühafizə orqanlarına xəbər verildiyi halda girov mütləq öldürüləcək. Elə bu hədə-qorxunun nəticəsidir ki, hələ indiyədək heç kəs polisə müraciət etməyib:** "Məsələ o qədər ciddidir ki, bu işə hər iki dövlətin başçıları diqqət ayırmalı, hər üç dövlətin hüquq-mühafizə orqanları qarşısında cinayətkarların zərəsizləşdirilməsi tələbi qoyulmalı və nəzarətə götürülməlidir. Məsələ ilə bağlı informasiya mənbələrinə sualla müraciət edəndə ki, nədən Rusiyadan gələn cinayətkar dəstə oğurluğu Rusiyanın özündə yaşayan azərbaycanlılar arasından yox, məhz Ukraynada həyata keçirir, cavab çox ilginc oldu. Rusiyadakı kriminal avtoritetlər iki il əvvəl Yekaterinburq "sxodkasında" adam oğurluğunu "zapadlo" sayıb və Rusiya ərazisində adam oğurluğunu qadağan ediblər. İkinci faktor isə Ukrayna daxili işlər naziri Avakovdur. Avakov bu cinayətlər barəsində məlumatı olduğunu, amma bunu guya "azərbaycanlıların daxili razborkası" kimi qəbul edib qarışmamağı tapşırıb. Sonuncu faktın həqiqət dərəcəsini şübhə altına almaq lazım olsa da, Avakovun Azərbaycana, azərbaycanlılara nifrəti şübhə doğurmur".

❑ **E.HÜSEYNOV**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Ərli qadın tanışına qoşulub gecəyarı qaçdı

**Ağsu rayon sakini döyülüb. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə Ağsu-Nöydü yolunun kənarında qeydə alınıb. Ağsu şəhərinin Xanlar küçəsindəki 2 saylı evdə yaşayan 1982-ci il təvəllüdlü Şükürov Zahir Malik oğlu həyat yoldaşı 1985-ci Məmmədova Raya Arif qızının gecə saatlarında evdən çıxaraq naməlum istiqamətə getdiyini görüb.**

O, dərhal qadının arxasınca küçəyə çıxaraq onu izləyib. Məlumata görə, Raya Məmmədovanı Ağsu-Nöydü avtomobil yolunun kənarında dayanmış avtomobilə oturaraq gedərkən Zahir Şükürov onların qarşısını kəsib. Raya Məmmədova və avtomobili idarə edən kişi Zahir Şükürovu ayaq və yumruq zərbələri, küt alətlə döyərək yolun kənarına atıblar və hadisə yerindən qaçıblar. Zahir Şükürova Ağsu Rayon Mərkəzi Xəstəxanasında tibbi yardım göstərilib.

Hazırda Ağsu Rayon Polis Şöbəsinin əməkdaşları Zahir Şükürova müxtəlif bədən xəsarətləri yetirən Raya Məmmədovanın və onun qoşulub getdiyi naməlum şəxsin tapılması üçün əməliyyat-axtarış tədbirləri həyata keçirirlər.

Faktla bağlı araşdırma aparılır.

## Bakıda maşın iki piyadanı vuraraq öldürüb

**Bakının Sabunçu rayonunda piyadaların ölümü ilə nəticələnən yol qəzaları baş verib. Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini Elşad Hacıyev idarə etdiyi "Skoda" markalı avtomobillə H. Əliyev prospektində yolu keçən Gürcüstan vətəndaşı Məmməd Əhmədovu vurub. M.Əhmədov hadisə yerində ölüb.**

Digər hadisə isə Zabrat qəsəbəsinin ərazisində qeydə alınıb. Gürcüstan vətəndaşı, 1970-ci il təvəllüdlü Amil Hüseynov idarə etdiyi "VAZ-2107" markalı avtomobillə yolu keçən Bakı şəhər sakini, 1980-ci il təvəllüdlü Abbas Abbasovu vurub. A. Abbasov hadisə yerində ölüb.

Hər iki faktla bağlı araşdırma aparılır.

## Ər arvadını bıçaqlayıb

**Bakıda ər arvadını bıçaqlayıb. Xəzər Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1974-cü il təvəllüdlü Sahil Babalıyev yaşadığı evdə ailə-məişət münaqişəsi zəminində arvadı, 1975-ci il təvəllüdlü Şəhla Babalıyevanı bıçaqlayıb.**

S.Babalıyev tutulub. Faktla bağlı araşdırma aparılır.

bakcell

## «Bakcell» bütün «DogmaCIN» abunəçiləri üçün facebook-a pulsuz çıxış imkanı yaradır

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti özünün «DogmaCIN» tarifinə daha bir dəyər əlavə edir. İndi bu tarifə qoşulan hər bir abunəçi facebook tətbiqinə pulsuz çıxış imkanı əldə edə biləcək.**

**Facebooka pulsuz çıxış qaydası facebook tətbiqinin və Facebook Messenger tətbiqinin bütün istifadə növlərinə (o cümlədən, FB Messenger tətbiqi vasitəsilə mesajlaşma, fotoşəkil və fayl paylaşma xidmətlərinə) tətbiq olunur. Facebook tətbiqindən başqa səhifələrə yönləndirmə, eləcə də Facebook Messenger vasitəsilə edilən səsli və video zənglərə görə adi qaydada haqq tutulacaq.**

**"İndi facebook-dan istifadə etməyən smartfon istifadəçisi ilə çətin rastlaşa biləsiniz. Biz istəyirik ki, abunəçilərimiz bir-birinə daha yaxın olmaq və bir-biri ilə daha sərfəli tariflərlə əlaqə yaratmaq üçün daha çox imkana malik olsun",-deyə «Bakcell» şirkətinin baş marketinq və satış direktoru cənab Fedja Hadziç bildirib. "Hər hansı bir «Bakcell» məhsulunun və ya xidmətinin yaradılması prosesində bizi motivasiya edən ən əsas amillərdən biri abunəçilərimizin bundan maksimal faydalanmasıdır. Buna görə də biz abunəçilərimizə daim bir-birindən cəlbedici məhsullar təqdim edirik. İnanırıq ki, abunəçilərimiz bu təklifdən faydalanacaq və şəbəkəmizdən istifadə edərkən həmçinin pula qənaət edəcəklər", - deyə cənab Fedja Hadziç əlavə edib.**

**Bütün yeni və mövcud DogmaCIN abunəçiləri sadəcə *515*1#YES abunə kodunu yığaraq bu təklifdən faydalana bilərlər. Bu zaman nömrənin balansından heç bir haqq tutulmur və qoşulan abunəçilər facebook tətbiqindən 7 günlük pulsuz istifadə edirlər.**

**7 günlük sınaq istifadə müddətindən sonra abunəçi facebookdan pulsuz istifadəni davam etdirmək üçün sadəcə öz nömrəsinin balansına vəsait yükləməlidir. Abunəçi hər həftə öz nömrəsinin balansına birdəfəlik 2 AZN-dən 4.99 AZN-dək artırdıqda 7 gün, ay ərzində 5 AZN və ya daha artıq vəsait artırdıqda isə 30 gün müddətində facebooka pulsuz çıxış imkanı qazanır.**

# Ukrayna evə qayıdır,






# Şimali İrlandiya göylərdə...

## C qrupunda üçüncü tur: sürpriz də ola bilər

**Bugün C qrupunda da üçüncü turun oyunlarına yekun vurulacaq. Saat 20:00-da Ukrayna-Polşa, Almaniya-Şimali İrlandiya komandaları qarşılaşacaq.**

“Avro-2012"nin iki təşkilatçı ölkəsi-Ukrayna və Polşa bu oyuna fərqli əhval-ruhiyyədə çıxacaqlar. Çünki Mixail Fomenkonun rəhbərlik etdiyi Ukrayna millisinin növbəti mərhələyə çıxmaq şansı yoxdur. Bu qrupda Polşanın və Almaniyanın 4 xalı var, Şimali İrlandiya isə 3 xalla növbəti mərhələyə çıxmaq şansını saxlayır. Almaniya ilə bugünkü oyunda heç-heçəyə nail ola bilsə, şimali irlandiyalılar da ən yaxşı üçüncü komanda kimi 1/8 mərhələyə adlaya bilərlər. Almaniyaya qalib gəlsələr, Polşa isə uduzsa, irlandiyalılar hətta qrup lideri də ola bilərlər. Amma irlandiyalılar uduzsa, Ukrayna udsa belə, Fomenkonun komandasının yenə 3-cü yeri tutmaq şansı yoxdur. Çünki ukraynalılar xalları bərabərləşən şimali irlandiyalılara uduzduğu üçün 3-cü pilləni tuta bilməz...

***

Rusiya mediasında Ukraynanın Fransanı erkən tərk edəcəyinə sevinənlər var. Bəzi media orqanlarında Ukraynanın “Eurovision” da qalib gəlməsi xatırlanır və “Avropada musiqidə birinci, Fransada futbolda birinci” kimi ironik replikalar yazılır.

Ukraynanın son dünya çempionu Almaniyaya qarşı dirənişi bu komandanın sonrakı iki oyunda uğur qazanacağına əminlik yaratmışdı. Amma Ukrayna Almaniyadan sonra(0:2) Şimali İrlandiyaya da eyni hesabla məğlub oldu.

Ukrayna mediasında da komandanın bu uğursuzluğu dərin məyusluq yaradıb. Ukraynanın Almaniya ilə oyundan sonra sanki dəyişdiyi, xarakter və komanda oyunu göstərmədiyi tənqid edilir. Ukraynanın “ua-football” portalından sitat: **“Fomenkonun rəhbərlik etdiyi komanda sanki ancaq güclü rəqiblə oynamağı bacarır. Əgər rəqib Almaniya və ya İspaniyadırsa komanda parlaq və məhsuldar oyun göstərir. Amma rəqib məsələn, Slovakiya və ya Şimali İrlandiyadırsa komandada mübarizlik itir”.**

Ukrayna millisinin yarımmüdafiəçisi Ruslan Rotan onlara yönəlik tənqidləri bölüşür və düşünür ki, bu gün komanda ölkənin şərəfini qorumaq üçün meydana çıxmalıdır. **“Sonuncu oyunda biz özümüzün və ölkəmizin şərəfi üçün oynamalıyıq. Bu son nəticəni dəyişməsə də, bizim üçün çox şey deməkdir”** deyə, 34 yaşlı oyunçu bildirib. Boqdan Butko da Polşa ilə oyunda komandasının azarkeşlər qarşısında daha yaxşı oynamağa borclu olduqlarını deyib: **“Komandaya azarkeşlik etmək üçün nə qədər adam Ukraynadan Fransaya gəlib. Onların qarşısında günahkarıq. İki oyunda bir qol belə vurmamışıq. Ona görə son oyunda qalib gəlib azarkeşlərin qarşısında oynamağı bacardığımızı sübut etməliyik”.**

Polşa millisinin baş məşqçisi də Adam Navalka Ukraynanın bugünkü oyuna hansı əhval-ruhiyyədə çıxacaqlarından xəbərdar olduğunu deyib. O deyib ki, Ukrayna növbəti mərhələyə çıxmaq şansını itirsə də, rəqib üçün bu, şərəf oyunu olacaq. Baş məşqçi söyləyib ki, Polşa bu oyuna ciddi hazırlaşıb, çünki komandanın qrupda hansı yeri tutacağı müəyyənləşir ki, bu da çox mühümdür". Polşa mətbuatı yazır ki, baş məşqçi bu gün start heyətdə dəyişiklik etməlidir. Çünki Lukaş Piçenko, Bartoşa Kapustki və Kjiştofa Monçinskinin hərəyə bir sarı kartı var və onları 1/8 ərəfəsi itirmək risklidir.

Yada salaq ki, Ukrayna FİFA reytinqində 19-cu, Polşa isə 27-ci yerdə qərarlaşıb. Komandalar indiyədək aralarında 7 oyun keçiriblər. 3 görüşdə ukraynalılar, 2 oyunda isə polşalılar qalib gəlib. 2 oyun heç-heçə nəticələnib.












### Löv: “Dünya çempionatı ərəfəsində də belə deyirdilər”

Şimali İrlandiya ilk dəfə Avropa çempionatının final mərhələsində iştirak edir. Kim gözləyərdi ki, indi onlar hətta 1\8 iştirak etmək şansı da var. Axı kim inanardı ki, üçüncü tur ərəfəsi almanlarla debütant arasında cəmi 1 xal fərq olacaq. Şimali İrlandiya Polşa ilə qarşılaşmayadək 12 oyun idi ki, uduzmurdu. Polşaya minimal hesablı məğlubiyyətdən sonra Ukraynaya inamlı qələbə şimali irlandiyalılara növbəti mərhələyə yüksəlmək şansı verib. Rəqibin isə Almaniya millisi olmasına baxmayaraq, Şimali İrlandiyanın onlara da qalib gəlmək iddialarından danışırlar.

Şimali irlandiyalılar Fransada iki fərqli oyun nümayiş etdiriblər. Polşa ilə oyunda komanda sönük oynayıb, rəqib qapısına oyun ərzində çox az zərbə vurub. Amma ukraynalılarla oyunda meydanda fərqli-mübariz və dəmir xarakterli komanda vardı.

Komandanın yarımmüdafiəçisi Djoş Maqennis deyib ki, bu gün almanlara qalib gəlmək gücündədirlər. **“Almaniya hər oyunda diktə edən tərəfdir və istənilən hücumda qol vurmaq bacarığı var. Bizə çətin olacağını bilirik, Almaniya çox yaxşı komandadır. Amma hər komandanın öz zəif tərəfləri var. Onlar güclüdürlər, amma şimali irlandiyalıların mentaliteti də belədir ki, biz hər oyunda qalib gəlmək istəyirik. Bilirik ki, oyun ərzində 70 faiz topa rəqib nəzarət edəcək, amma biz effektiv komandayıq, bizi sındırmaq çətindir”.**

Almaniyanın baş məşqçisi Yoaxim Löv qrupdakı son oyun ərəfəsi komandasına yönəlik tənqidlərə cavab verib. Löv deyib ki, komandasında lider olan futbolçunun olmaması barədə iddialar onu narahat etmir, əksinə, keyfini açır: **“Bu çox gülməlidir. Dünya çempionatı ərəfəsində də belə deyirdilər. Amma biz dünya çempionu olduq. İndi bir dəfə heç-heçə oynadıq *(Polşa ilə oyun nəzərdə tutulur-N.S.)* deyə, yenə həmin söz-söhbətlərə qayıdıblar. Ötən həftə komandanın müdafiə xətti haqqında tənqidi danışırdılar, indi isə hücum xəttində problemlər olduğu haqda”.**

Baş məşqçi deyib ki, Polşa ilə oyunda heç-heçənin səbəbini bilir: **“Səbəb o deyil ki, parlaq hücumçu yoxdur. Sadəcə, biz rəqibin cərimə meydançasına lazımi səviyyədə hücum təşkil etmədik”.**

Şimali İrlandiya ilə oyuna gəlincə, gözlənilir ki, favorit Almaniya olsa da, Lövün komandası qalib gəlmək üçün xüsusi cəhdlə irəli atılmayacaq. İrlandiya da almanlarla oyunda heç-heçəyə nail olsalar, növbəti mərhələyə yüksəlmək şansı əldə edəcəklər.

Almaniya FİFA reytinqində 4-cü yeri tutur, Şimali İrlandiya isə dünya komandaları sırasında 25-ci pillədədir. Almaniya və Şimali İrlandiya indiyədək 7 oyunda qarşı-qarşıya gəliblər. 4 oyunda güclü tərəf almanlar olub, 3 oyunda isə heç-heçə qeydə alınıb.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

# Son səhifə

N 135 (6456) 21 iyun 2016



## Üç rəfiqə bir yerdə 100 yaşlarını qeyd etdi

Vaşinqtonda üç uşaqlıq rəfiqəsi özlərinin 100 illik yubileyini keçiriblər. Onlar bu tədbiri yerli baptist kilsəsində qutlayıblar. Qledis Batler, Bernis Andervud və Rut Hemmet 1916-cı ilin yayında anadan olublar və Vaşinqtonda bir yerdə böyüyüblər. Rəfiqələrin dördüncüsü, Leona Barnes isə 100 yaşına iki ay qalmış dünyasını dəyişib. Onlar bir yerdə işləyib və bir-birinə təsərrüfat işlərində yardım ediblər. Qadınların ortaq bayramına qohumlar, uşaqlar, çoxsaylı nəvələr və nəticələr yığışıb. Kilsəyə gələnlər isə rəqs edib, əylənib və təqaüdçü qadınlara gül, hədiyyə veriblər. Yubilyarlar dördüncü rəfiqələrini də unutmayıblar. Onlar bir masanın üzərində həmin rəfiqələrinin portretini də yerləşdiriblər.



## Gözün mavidirsə, alkoqolik ola bilərsən

ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub. "Focus Online"da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqola meylliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, araşdırmanın test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.

# Klintonlar ikinci nəvələrini qucaqlarına aldılar

ABŞ-ın prezidentliyə namizədi Hillari Klinton bu yaxınlarda ikinci dəfə nənə olub. O, yeni doğulmuş nəvəsi ilə fotolarını paylaşıb. Şəkildə qucağında nəvəsini tutan Hillarinin yanında əri Bill Klinton da var. O, bu fotonu tvitter səhifəsində paylaşıb. "Yeni doğulan nəvəmiz Eydanla birgə olmaq necə də xoşdur" yazan Klintonu tvitterdə 7 milyon nəfər izləyir. Klinton 18 iyunda nənə olub. Onun qızı Çelsi əri - bankir Mark Mezvinskidən ikinci qızını dünyaya gətirib. Cütlüyün 2014-cü ildə dünyaya gəlmiş Şarlotta adlı qızları da var. Onun soyadı isə Klinton Mezvinskidir. 36 yaşlı Çelsi Klintonların yeganə övladıdır.



# Həkimlərin 40 faizi gigiyenaya diqqət etmir, pasiyenti xəstələndirir

Ümumdünya Səhiyyə Təşkilatı açıqlayıb ki, həkimlərin 40 faizi əl gigiyenasına diqqət etmir. İtaliya, Mali, Pakistan və Səudiyyə Ərəbistanının 43 xəstəxanasında aparılan araşdırma nəticəsində tibb bacılarının da 29 faizinin əl gigiyenasına əhəmiyyət vermədiyi üzə çıxıb. Dünyanin 168 ölkəsində həkim, tibb bacısı və digər tibb işçiləri arasında "Təmizlik təhlükəsizlikdir" şüarı ilə keçirilən kampaniya çərçivəsində onlara təmizliklə bağlı təlim verilir. ÜST həmçinin açıqlayıb ki, müalicə zamanı yoluxan xəstəliklərin çoxu səhiyyə işçilərinin xəstəyə toxunması ilə keçən mikroblardan qaynaqlanır. İnkişaf etmiş ölkələrdə hər 100 xəstədən 7-si, inkişaf etməkdə olan ölkələrdə isə hər 100 xəstədən 10-u bu mikrob ucbatından xəstələnir. Son illərdə bu sahədə aparılan təbliğat sayəsində isə əl gigiyenasına diqqət etmə faizi 51 faizdən 67 faizə qədər artıb.





## 6 il işləmədi, ayda 8 min dollar maaş aldı

Bir texnologiya şirkətində proqramçı olaraq çalışan işçi görməli olduğu bütün işləri avtomatik sistemə bağlayaraq 6 il boyunca heç çalışmadan ayda 8 min dollar maaş alıb. Amma bu hərəkətinə görə onu işdən qovublar. Buna səbəb isə onun sistemini kodlamağı unutmasıdır. Buna baxmayaraq, 6 illik uzun karyerası zamanı 200 min dollar yığıb və buna görə də maddi baxımdan hər hansı çətinliyi yoxdur. Evdə anasının hazırladığı axşam yeməyini yeyən, işlədiyi zamansa naharını balıq sendviçi və kola ilə yola verən gənc onun sayəsində qənaət edə bilib.

Amma adı açıqlanmayan gənc artıq bacarıqlarını bir sistemə qoymaq istədiyini deyib. Buna görə də bir neçə yerə işlə bağlı müraciət edib. Dediyinə görə, bu günə qədər unutduğu bir çox şeyləri təkrarlayacaq və bununla da motivasiyası geri qayıdacaq.

## Qoroskop




**QOÇ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda istirahət edin.

**BUĞA** - İqlimin qızmarlığı neçə gündür ki, fiziki yorğunluğunuza səbəb olub. Odur ki, istirahətə daha çox yer ayırın. Günün ikinci yarısında isə uzaq səfərə də çıxmaq olar.

**ƏKİZLƏR** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Qızmar yayın bu ərəfəsi karyeranız üçün həddindən ziyadə uğurlu ərəfə olacaq. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr edin.

**XƏRÇƏNG** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyə bilər. Sevgi amilinə diqqəti artırın.

**ŞİR** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.

**QIZ** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə, xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın. Sirlərinizi açmayın.

**TƏRƏZİ** - Bu təzadlı təqvimdə bacardığınız qədər təmkin nümayiş etdirməyə çalışın. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, daha çox həzin bir musiqiyə qulaq asasınız.

**ƏQRƏB** - İqlimin qaynarlığı səhhətinizə mənfi təsir göstərə bilər. Bu səbəbdən də ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün olduqca vacibdir. Yeni işlərə başlamayın.

**OXATAN** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.

**OĞLAQ** - Dünəndən bəri bürcünüzdə qərar tutan mənfi enerjili Ay tövsiyə edir ki, təpər tapıb qarşınıza çıxan maneələri dəf edəsiniz. Günün ikinci yarısında yeni işgüzar əlaqələr qurmaq üçün əzmkarlığınızı artırmalısınız.

**SUTÖKƏN** - Dünya niyə xoşunuza gəlmir? Bəlkə səbəbi təbiətdə deyil, insanlarda arayasınız. İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün. Gün ərzində soyuq qidalardan uzaq olun.

**BALIQLAR** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaq üçün bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Selfi daha bir can aldı



Britaniya vətəndaşı selfi çəkdirərkən əlində tutduğu selfi çubuğunu ildırım vurub. İldırım vuran adam yerindəcə ölüb.

Uelsin cənubunda yerləşən Brekon-Bikons parkında baş verən hadisə zamanı qasırğalı havada bir qrup şəxs dağın başında selfi çəkdirirdi. Həmin gün hadisə yerində iki nəfər ölüb. İkinci şəxsin ölüm səbəbi dəqiqləşdirilir. Daha iki nəfər travma alaraq xəstəxanaya çatdırılıb. Təhlükəsiz selfi çəkdirmək problemi artıq dünyanın müzakirə obyektinə çevrilib. Rusiya DİN-i hətta bu haqda məktəblilər üçün yaddaş kitabçaları çap etməyə başlayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750